www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 oktyabr 2016-cı il Bazar ertəsi № 223 (6544) Qiyməti 60 qəpik

**Xəbər**

## Toya hazırlaşan hərbçi faciəvi şəkildə öldü

yazısı səh.14-də

**Gündəm**

### Prezidentin sensasion Qarabağ bəyanatı gündəmə çevrildi



Dağlıq Qarabağın "müstəqilliyini" tanımaq üçün Azərbaycana kim(lər) təzyiq edir? Ekspertlərə görə, dövlət başçısı ABŞ və Rusiyaya işarə vurub, amma...

yazısı səh.9-da

### "Vosmoy bazarı" uğrunda gedən 15 illik savaşın ilginc detalları...

yazısı səh.10-da

### Azərbaycanın nüvə silahı olan tək müttəfiqi - Pakistanın baş naziri Bakıya nə ilə gəlir?

yazısı səh.9-da

### Qarabağ anlaşması önündə əsas əngəl - ikili standart

Bir-biri ilə ədavətdə olan Rusiya və ABŞ-ın işğalçıya ortaq himayəsinin sirri

yazısı səh.11-də

### "ABŞ-Rusiya anlaşması tezliklə mümkün olmayacaq" - ekspert

yazısı səh.6-da

### Bu gün Trampın namizədliyi ləğv oluna bilər

yazısı səh.3-də

### 4 təkərli "qəbiristanlıq": ölümə aparan sovet avtomobilləri niyə yığışdırılmır?

yazısı səh.13-də

### Əkrəm Əylisliyə qarşı cinayət işi xətm edilə bilər

yazısı səh.6-da

### Gürcüstan seçkiləri: Saakaşvilinin revanşı niyə baş tutmadı?

yazısı səh.3-də

### Məhərrəmlikdə restoran biznesində durğunluq hökm sürür

yazısı səh.13-də

### Azərbaycan millisinin tarixi qələbəsi: qrupdan çıxmaq şansımız varmı? - Şərhlər

yazısı səh.14-də

## Ünlü iş adamı Bakıda niyə cəzalandırıldı

# MİLYARDER İSGƏNDƏR XƏLİLOVUN BANKDAN İSTEFASININ PƏRDƏARXASI - ŞOK İDDİALAR

Rusiyadakı məşhur azərbaycanlının kapitalı ilə maliyyələşən "NIKOIL Bank"ın filiallarının qəfil bağlanmasına və rəhbərliyin ittiham olunmasına səbəb nə olub? İş adamının Müşahidə Şurası sədrliyindən istefası haqlı suallar doğurur...




yazısı səh.5-də

## Putinin Bakı və Ankaraya qarşı "at gedişi" - Türkiyəyə, oradan isə Ermənistana...

Rusiya prezidenti "Su 24" insidentindən sonra bu gün ilk dəfə qardaş ölkəyə gedir, cavab səfərindən əsas gözlənti nədir; İrəvanda isə Putinin "Rus NATO-su"na erməni generalın rəhbər gətirilməsinə "dobro" verəcəyi deyilir; Azərbaycan üçün daha bir mühüm həftə başlayır...

yazısı səh.8-də



*Zahid Oruc:*

### "Danışan adamlar təhlükəli ola bilməz, susanların bir çoxu isə..."

yazısı səh.7-də



*Ramiz Əzizbəyli:*

### "Son 10 ildə çəkilən filmlər "vozdux"dur"

yazısı səh.12-də



### Akif Çovdarovun cinayət dosyesində daha bir sensasion epizod üzə çıxdı

yazısı səh.4-də



## Bakıda dollar bolluğunun səbəbi üzə çıxdı

**Dövlət Neft Fondu (DNF) Azərbaycan Beynəlxalq Bankında birillik müddətə 4 faizlə bir milyard dollarlıq depozit yerləşdirib. Fonddan bildiriblər ki, "DNF depoziti ABB-yə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın 2.1.3.-cü bəndinə uyğun olaraq yerləşdirilib" (Fins.az). Azərbaycan Beynəlxalq Bankından isə deyiblər ki, Dövlət Neft Fondunun bu addımı xarici öhdəliklərin yerinə yetirilməsi ilə bağlıdır.**

Əslində Neft Fondunun vəsaitlərinin yerli banklarda yerləşdirilməsi yeni məsələ deyil. Ancaq burda başlıca niyyət bankların xarici borclarının ödənilməsi də sayıla bilməz. Məqsəd - ucuz vəsaitin yerli banklarda yerləşdirilməsi və nəticədə kreditlərin faiz dərəcəsinin aşağı düşürülməsidir. Vaxtilə prezidentin də bu barədə tapşırığı olub.

Bununla belə fonddan bildiriblər ki, hazırda DNF-nin digər yerli banklara depozit qoyuluşu planları yoxdur. Fondun vəsaitləri xarici banklarda, o cümlədən qiymətli kağızlarda və kommersiya daşınmaz əmlakda saxlanılır. Virtualaz.org xatırladır ki, valyuta hərraclarında Dövlət Neft Fondu bir neçə aydır ki, yerli banklara hər həftə iki dəfə hər dəfə 50 milyon dollar satırdı. Lakin ötən ay valyuta bazarında tələbatın kəskin artmasından və nəticədə dolların yenidən bahalaşmağa başlamasından sonra Fond banklara bir dəfəyə rekord məbləğə - 300 milyon dollar satıb. Bundan sonra dollara tələbat kəskin azalıb və hazırda manat dollara nisbətdə qismən dəyər qazanmaqdadır.

Ekspertlərə görə, dollara tələbatın azalmasına Dövlət Neft Fondunun Azərbaycan Beynəlxalq Bankında yerləşdirdiyi 1 milyard dollar depozitin də rolu var. Fond indiyədək yerli banklarda heç vaxt bu məbləğdə depozit yerləşdirməmişdi.

## PKK Türkiyədə yenə terror törətdi - 17 nəfər şəhid oldu

**Türkiyənin Hakkari rayonunun Şəmdinli qəsəbəsində yerləşən hərbi postda terror aktı baş verib. "Report" "Hürriyet"ə istinadən xəbər verir ki, bomba yüklənmiş avtomobillə posta hücum nəticəsində 8 əsgər şəhid olub.**

Hücumu PKK terror təşkilatının törətdiyi bildirilir. Hadisə zamanı aralarında mülki şəxslər də olmaqla, 7 nəfər yaralanıb. Türkiyə Silahlı Qüvvələrinin yaydığı məlumatda yaralananlardan 5-nin hərbçi olduğu bildirilir. Partlayışdan sonra ərazidə 5 metr dərinliyində və 10 metr enində böyük çuxur yaranıb.

Hadisədən dərhal sonra qəsəbədə havadan dəstək verilən geniş miqyaslı antiterror əməliyyatı başlayıb. Əraziyə çoxlu sayda təcili yardım maşını cəlb edilib. Yaralılar Şəmdinli və Yüksəkova dövlət xəstəxanalarına aparılıblar.

Qəzet çapa gedərkən ölü sayı 17-yə çatmışdı.


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**


# Prezident İlham Əliyev Türkiyəyə getdi

**Azərbaycan prezidenti İlham Əliyev Türkiyədə keçirilən XXIII dünya enerji konqresində iştirak etmək üçün bu ölkəyə səfər edib. "Report"un məlumatına görə, bu barədə "Anadolu" agentliyi xəbər yayıb.**



Məlumatda bildirilir ki, Atatürk adına Beynəlxalq Hava Limanında Azərbaycan prezidentini İstanbul qubernatoru Vasip Şahin və digər rəsmi şəxslər qarşılayıb. Azərbaycan prezidenti bu gün Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla görüşəcək. Görüş işçi nahar çərçivəsində keçiriləcək.

Qeyd edək ki, sabah Türkiyənin İstanbul şəhərində dünya enerji sammiti öz işinə başlayacaq. Dünyanın 80 ölkəsindən 50 ölkə başçısının, 54 baş nazirinin, ümumilikdə 266 dövlət rəsmisinin qatıldığı sammitdə TANAP, TAP və "Türk axını" kimi nəhəng layihələrin müzakirəsi keçiriləcək.

Beynəlxalq tədbirin açılışını oktyabrın 10-da Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan və baş nazir Binəli Yıldırım edəcək.

## Futbol matçına gedərkən körpüdən yıxılan gəncin durumu ağırdır

**Srağagün keçirilən Azərbaycan - Norveç futbol matçına gedən zaman körpüdən yıxılan Zahidov Nahid Hafiz oğlunun vəziyyəti ağır olaraq qalır. Lent.az xəbər verir ki, bu barədə futbol11.az-a 3 saylı Şəhər Klinik Xəstəxanasından məlumat verilib.**

Zahidovun həkimi Aydın Kazımov xəstənin diaqnozunu açıqlayıb: "Xəstəyə qara ciyərin cırılması, dalağın partlaması, sidik kisəsinin cırılması, sağ böyrəyin əzilməsi, sol bazunun və çanaq sümüklərinin sınığı diaqnozu qoymuşuq". Həkim qeyd edib ki, onun həyatına təhlükə davam edir: "Xəstə hazırda reanimasiya şöbəsinə yerləşdirilib. Həyatı üçün təhlükə ondan ibarətdir ki, çoxlu orqanlarda zədələnmələr var. Hər şeyi valideynlərinə də başa salmışıq. Şükür Allaha ki, hələlik salamatçılıqdı. Əməliyyatı 3 saatdan yuxarı davam edib".

Qeyd edək ki, əslən Lerik rayonundan olan olan Nahid hərbi xidmətdən yeni gəlib. O, ailənin iki övladından biridir. Bir bacının qardaşı olan Zahidov Kooperasiya Universitetinin məzunudur.



## Vahe Avetian: "Bilet alıb Bakıya gələn ilk erməniyəm"

**Siyasi fəal, hazırda İsveçdə sürgündə yaşayan erməni Vahe Avetian Azərbaycana gəlib. Onu aeroportda Dövlət Təhlükəsizlik Xidmətinin nümayəndələri qarşılayıb.**

24saat.org saytı xəbər verir ki, Heydər Əliyev adına Beynəlxalq Hava limanında erməni yazıçı Vahe Avetian saxlanılıb. Avetian facebook profilində hadisə ilə bağlı geniş açıqlama yayıb. O yazır ki, sülhün başlanğıcıdır. Bilet alıb Bakıya gələn ilk ermənidir: "25 ildir bu ölkəyə dəvətsiz, hökumətin razılığı olmadan bir erməni də girə bilməyib. Mən öz istəyimlə gəlmişəm. Qonaq gəlmişəm. Tarixi dəyişirik. Bu gün sülhün başlanğıc günüdür".

Vahe bildirib ki, enişdən sonra onu aeroportda saxlayıblar. DTX nümayəndələri gəlib, səmimi söhbət ediblər. O da niyə gəldiyini izah edib. Onlar gediblər, söz veriblər ki, proses tezliklə həll olunacaq. Yəqin ki, onu geri göndərəcəklər.

Vahe kofe və tosta qonaq edildiyini də yazıb. "Oturub söhbət edirik, deyib gülürük. Əla uşaqlardı".

## Bu gün yağış yağacaq, güclü külək əsəcək

**Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti xəbər verir ki, gecəyə doğru yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var.**

Mülayim şimal-qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 14-17° isti, gündüz 20-24° isti, Bakıda gecə 15-17° isti, gündüz 22-24° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 760 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85 %, gündüz 60-70 % təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18° isti, gündüz 20-25° isti, dağlarda gecə 6-11° isti, gündüz 15-20° isti olacağı gözlənilir.

## Bu həftə "Türk axını" barədə müqavilə imzalana bilər

**Moskva və Ankara 10-12 oktyabr tarixlərində İstanbulda keçiriləcək Ticari-iqtisadi Əməkdaşlıq üzrə Rusiya-Türkiyə Hökumətlərarası Komissiyasının iclasında "Türk axını" barədə müqavilə imzalaya bilər. APA-nın "Hürriyet" qəzetinə istinadən verdiyi məlumata görə, bunu Rusiyanın energetika naziri Aleksandr Novak bildirib.**

Novak deyib ki, hökumətlərarası müqavilənin layihəsi hazırdır, qalan bir neçə məsələ ilə bağlı Rusiya tərəfi türkiyəli həmkarları ilə aktiv əlaqə saxlayır. Rusiyanın energetika naziri iclasda müqavilənin imzalanması şansının olduğunu söyləyib.

Qeyd edək ki, "Türk axını" Qara dənizdən keçməklə Türkiyə-Yunanıstan sərhədinə qədər qaz kəmərlərinin çəkilməsini nəzərdə tutur. Layihə çərçivəsində hər birinin gücü ildə 15,75 milyard kubmetr olan 4 kəmərin çəkilməsi, Rusiya qazının Türkiyə və Avropa bazarlarına çıxarılması üçün yeni marşrutun yaradılması planlaşdırılıb. İlk kəmərlə ötürüləcək qazın bütünlüklə Türkiyənin qaz tələbatına yönəldilməsi razılaşdırılıb. Layihənin ümumi dəyəri 11,4 milyard avrodur.



## Neftçalada ər 31 yaşlı arvadını ürəyindən vurub öldürdü

**Ötən gecə Neftçala rayonunda ər arvadını qətlə yetirib. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Neftçala rayonunun Birinci Qaralı kənd sakini 1978-ci il təvəllüdlü Qafarov Ceyhun Abdulhüseyn oğlu həyat yoldaşı 1985-ci il təvəllüdlü Qafarova Aygün Arif qızını ürək nahiyəsinə bıçaq zərbəsi endirərək qətlə yetirib.**

A. Qafarova 3 uşaq anasıdır. Faktla bağlı Neftçala rayon Prokurorluğunda araşdırma aparılır.

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016

# Gürcüstan seçkiləri: Saakaşvilinin revanşı niyə baş tutmadı?

## Sabiq prezidentin tərəfdarları nəticələri tanımamaqla hədələyir; ölkəni etiraz dalğası bürüyə bilər; ekspertlərin proqnozları birmənalı deyil; Əhəd Məmmədli: "Seçkiləri Rusiyanın uğuru kimi qiymətləndirmək olar..."

**Oktyabrın 8-də Gürcüstanda keçirilən parlament seçkiləri gözlənilməz nəticələrlə yadda qaldı. Eks-prezident Mixail Saakaşvilinin Vahid Milli Hərəkat Partiyasının (VMHP) qalibiyyəti gözlənilsə də, hakim "Gürcü Arzusu" Koalisiyası 50%-dən çox səs yığaraq seçkilərin qalibi oldu.**



Mərkəzi Seçki Komissiyası (MSK) oktyabrın 9-da səhər saatlarında bülletenlərin 60 faizdən çoxunun sayılmasının nəticəsi olaraq, "Gürcü Arzusu" Koalisiyasının bu nəticəni qazandığını elan edib. Saakaşvilinin partiyası 27 faizə yaxın səs alıb. Qalan partiyalar 5 faizlik seçki baryerini keçə bilməyiblər. Səsvermədə 50%-dən çox seçici iştirak edib. Lakin bəzi majoritar dairələrdə ikinci turun keçiriləcəyi istisna edilmir.

Keçirilən "exit-pol"ların nəticələrinə görə də seçkilərdə ən çox səsi "Gürcü Arzusu" Partiyası qazanıb. Gürcüstanın baş naziri, "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının sədri Georgi Kvirikaşvili seçki günü axşam saatlarında qələbə münasibəti ilə seçiciləri və tərəfdaşlarını təbrik edib.

VMHP tərəfdarları nəticələrlə razılaşmayıblar. Saakaşvilinin partiyasının bir qrup tərəfdarı MSK-nın qarşısına toplaşıb. Müxalifət nümayəndələrinin bir qrupunun MSK rəhbəri ilə keçirdiyi görüşdən sonra aksiyaçılar dağılışıblar. VHMP elan edib ki, seçkilər saxtalaşdırılıb və nəticələrini tanımayacaqlar. Səsvermə günü bəzi məntəqələrdə qarşıdurma yaranıb. Əsasən azərbaycanlıların yaşadıqları bölgələrdə çoxsaylı pozuntuların qeydə alındığı bildirilib. Marneuli rayonunun Qızıl Hacılı kəndindəki 48 nömrəli seçki məntəqəsində "Gürcü arzusu" partiyası və Vahid Milli Hərəkat Partiyasının tərəfdarları arasında qarşıdurma baş verib, xəsarət alanlar olub.

Məlumata görə, 100-dək dəyənəklərlə silahlanmış naməlum şəxs məktəb binasında fəaliyyət göstərən seçki məntəqəsinə hücum edərək oranı daşqalaq edib və seçki qutularını aparmağa cəhd ediblər. Hücum edənlərlə Vahid Milli Hərəkat Partiyasının tərəfdarları arasında qarşıdurma baş verib. Əlbəyaxa davada 200-dək şəxsin iştirak etdiyi bildirilib. Qarşıdurmanın qarşısını almağa çalışan polis əməkdaşları arasında xəsarət alanlar olub.

"Gürcü arzusu" Partiyasının nümayəndələri VMHP tərəfdarlarının hücumuna məruz qaldıqlarını iddia ediblər. Saakaşvilinin partiyasından majoritar namizəd Əhməd İmamquliyev isə bildirib ki, qarşıdurmaya hakim partiyanın səsvermə zamanı saxtakarlıq törətməyə cəhd etməsi səbəb olub. İnsident zamanı xəsarət alan polis əməkdaşlarından biri azərbaycanlı olub. Polis zabiti Ramin İsmayılov reanimasiya şöbəsinə yerləşdirilib. Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Ramin İsmayılova baş çəkib. O, insidenti planlaşdırılmış təxribat adlandıraraq, onun qarşısının alınmasına görə Ramin İsmayılova və xəsarət almış digər polis əməkdaşlarına təşəkkürünü bildirib.

İlkin nəticələrin açıqlanmasından sonra VMHP rəhbərliyi məşvərətə toplaşıb və sonrakı addımları müzakirə ediblər. Partiyanın kütləvi etiraz aksiyalarına başlayacağı gözlənilir.

Qeyd edək ki, seçkilərdə 30-a yaxın azərbaycanlı namizəd iqtidar və müxalifət partiyalarının iddiaçısı kimi iştirak ediblər. Qəzet çapa gedərkən onlardan qalib gələnlər barədə dolğun məlumat yox idi. Bu günlərdə kimlərin gürcü parlamentinə keçdiyi dəqiq bilinəcək.

***

Gürcüstandakı seçkilərlə bağlı ekspertlərin müxtəlif fikirləri var - xüsusilə də hakim partiyanın qələbəsi ilə bağlı. Rusiya amilinin və bəzi yerlərdə seçki günü baş verən saxtakarlıqların nəticələrə ciddi təsir etdiyi bildirilir. Bunun əksini deyənlər də var. Onlar səbəb kimi, hakim və müxalifət partiyası arasında olan səs fazinin kifayət qədər yüksək olduğunu göstərirlər. "Gürcü Arzusu" Koalisiyasının əvvəlcədən qələbəsinin gözlənilən olduğunu deyənlər də var. Seçkinin nəticələrinin regiona və Azərbaycana təsirinin olacağını düşünənlər az deyil. Rusiyanın regionda mövqelərinin möhkəmlənəcəyi bildirilir. Səbəb kimi hazırkı Gürcüstan iqtidarının ikibaşlı siyasət yürüdərək, daha çox Rusiyameylli siyasət apardığı göstərilir.

**Politoloq Əhəd Məmmədli bildirdi ki, əvvəlcədən Saakaşvilinin qalib gələcəyinə inam yox idi:** "Saakaşvilinin son mitinqi çox izdihamlı keçmişdi. Bu mitinqdən sonra Saakaşvili qalib gəlməsə də, 30-40% civarında nəticələr əldə edəcəyi gözlənilirdi. Amma bu qədər üstünlüklə iqtidarın qalib gələcəyi gözlənilən deyildi. Saxtakarlığın olması doğrudur. Müəyyən qədər nəticələri oldu. Rusiya amilinin nəticələrə təsir etdiyi şübhəsizdir. Çünki Rusiya heç bir halda Saakaşvilinin Gürcüstana qayıtmasını istəmir. İndiki gürcü hakimiyyətinin birmənalı Rusiyayönlü adlandırmaq olmaz. Amma Saakaşvili kimi Rusiyaya qarşı açıq mövqedə deyil. Bu seçkiləri Rusiyanın uğuru kimi qiymətləndirmək olar. Gürcüstanda etiraz mitinqləri ola bilər. Amma 13 il öncənin inqilabının təkrarlanacağını gözləmirəm. Saakaşvili tərəfdarları nəticələrlə razılaşıb, parlamentdə oturmağa məcbur olacaqlar. Nəticələrin azərbaycanlılar üçün xüsusi bir dəyişiklik olacağını düşünmürəm. Gürcüstanda ən böyük azlıq olmamağımıza baxmayaraq, ən hüquqsuz milli azlıq olaraq qalmağa davam edəcəyik. Regiona da bu seçkilərin təsiri olmayacaq. Sadəcə, Rusiya-ABŞ arasında status-kvo qorundu".

❑ **Cavanşir ABBASLI**

# Bu gün Trampın namizədliyi ləğv oluna bilər

**ABŞ Respublikaçılar Partiyasının rəhbərliyi bu gün partiyanın Milli Komitəsinin iclasının çağırılması barədə qərar verib. APA-nın "Associated Press" agentliyinə istinadən verdiyi məlumata görə, iclasda partiyanın ABŞ prezidentliyinə namizədi, milyarder Donald Trampla bağlı məsələnin müzakirə olunacağı gözlənilir.**



Donald Tramp

Milli Komitənin üzvlərinə göndərilən elektron məktubda müzakirənin predmeti göstərilməyib. Ancaq Komitənin bəzi hüquqşünasları hesab edirlər ki, iclas D. Trampla bağlı son qalmaqalla bağlıdır və D. Trampın namizədliyinin ləğvi müzakirəyə çıxarılacaq. Respublikaçılar Partiyasının Milli Komitəsinin iclasları çox nadir hallarda və çox vacib məsələlərlə əlaqədar çağırılır.

Qeyd edək ki, bundan əvvəl Respublikaçılar Partiyasının prezidentliyə namizədi D. Trampın başqa bir namizədlə əvəzlənməsi imkanlarını öyrəndiyi barədə məlumat yayılıb. Buna səbəb D. Trampın 2005-ci ildə qadınlar barədə söylədiyi təhqiramiz söhbətin ortaya çıxmasıdır. Tramp bunu inkar etməyib. Bununla belə, milyarder öz istəyi ilə heç bir halda seçki marafonundan çəkilməyəcəyini bəyan edib.

# Yoxsa sən... qonorar... üçün?



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Qüsura baxmayın, bu dəfə öz dərdimizdən yazacam. Nə yazsaq, nə tapsaq, hansı layihəni işləsək, hansı müsahibəni götürsək də... yarına bilmədiyimiz bəzi oxucuların terrorundan. "Ac həriflər"in qəhrəmanı sayağı, onlar sənin hər yazdığına "həə, nolsun" deyib ağız büzmə şansına sahibdilər. Olsun şansları, razıyam. Amma bir seçimləri də olmalıdır: oxumamaq. Adamlar sanki sadomazoxizmin üst təbəqəsinə yüksəliblər.Oxumaqla həm özlərinə (guya) əzab verirlər, həm də yazısını oxuduqları adamın əsəblərinə. Bir sərhədləri də olmaıdır: tərbiyə sərhədi... Tanımadıqları insanları bir cümləyə görə dünyanın ən ağır sözlərinə qonaq etmək lüksü heç kimə verilməyib.**

Anlada bilmirsən ki, heç kim heç kimin evinə zorla girmir, kompüterində zühur etmir. Oxumamaq, imtina etmək də bir seçim, mədəniyyətdir. Deyirsən ki, hansısa yazını bəyənməmək onun müəllifinə küfr etmək, aşağılamaq haqqı vermir sənə. İzah edirsən ki, əgər sənin evində kompüterin, üstəgəl, sosial şəbəkədə hesabın varsa, dünyanın mütləq sahibi sən deyilsən, öncə əlinə, klaviaturana, sonra da əsəblərinə yiyə duracaqsan. Amma... kimə deyirsən?

Yazdığını bəyənməyənlərin öz aləmlərində səsləndirdikləri ən "kəskin" arqumentlərindən yazacam bu dəfə. Nə yazırsansa bu müdrik bacı-qardaşlar, əmi-xalalar, romalılar... səni qonorar xatirinə yazı yazmaqda ittiham edirlər. "İttiham" sözünü onların təqdimatında yazdım. Çünki adına jurnalist deyilən məslək yiyələri bilmərrə qonorar üçün yazır, yazmalıdır. Necə ki, müəllim səhər saat 8-də məktəbdə öz kefi, əhvalı, təhsil eşqi üçün yox, məvacib üçün gəlir, dərsdən sonra axşam 6-ya qədər individual məşğələləri o pulun xatirinə keçirir, biz də eləcə. Bu, iki vur ikinin dörd olması qədər gündən aydın bir həqiqətdir.

Bəli, jurnalist yaxşı yazını yaxşı qonorar almaq üçün yazır. Daha çox yazan daha çox qonorar qazanmaq istəyir. Bu, jurnalistikada halal qazancın yolu adlanır. Siz "copy-past.az" tipli saytlar açıb, digər həmkarlarının yazılarını köçürən, öz saytlarına media orqanından daha çox "toçka" münasibəti göstərənlərə nə baxırsız? Onlar xəbəri sayta qoyanda bir məqsəd güdürlər, onu saytdan çıxaranda başqa məqsəd. Heç onların bahalı maşınları, evləri, telefon kitabçalarındakı "zerkalnı" nömrələr də yanıltmasın sizi. Bəli, onlar kiminsə qapısını ayaqla da aça bilərlər, hər axşam bahalı restoranlarda kefə baxa, lüks məkanlarda istirahətə də gedə bilərlər. Amma bütün bunları edib, jurnalist adına iddia edə bilməzlər, etmək haqları yoxdur. Çünki jurnalist elə yazısını qonorar almaq üçün yazan təbəqəyə deyilir.

Yanlış anlamayın, "qonorar xətrinə hər şey yazan" demədim, yazısını qonorar almaq üçün yazanlardan danışdım. Saytın oxunma faizi artsın, sayta reklam gəlsin, yazıları paylaşılsın... Kim deyir ki, bu, utancverici və ya işimizin çirkli mətbəxi-filandır? Bu, jurnalistikanın "olmazsa olmazı"dır. Hər halda jurnalistləri heç kim ölü arzulayan, xəstə sevdasında olan molla, həkim tayfası ilə müqayisə edə bilməz. Çünki dava-dalaş, ölüm, xəstəlik olmadan da gözəl yazı, xəbər yazmaq mümkündür. Bunun minlərlə örnəkləri var.

Hərdən bəzi saytların yazı oxutmaq üçün istifadə etdikləri iyrənc başlıq seçimlərini görəndə öz peşəmdən utandığım doğrudur. Tutaq ki, hansısa məşhur olduqca məsumanə bir müsahibə verib, övladının gecələr onu yuxusuz qoymasından şikayətlənir. Bax, o şikayətləndiyimiz saytlarda bu müsahibənin başlığı "Mən onunla bütün gecə...." olur. Üç nöqtəni də qəsdən qoyub cümləni tamamlamırlar ki, bütün variantlara qapı açılsın, yazı da çox oxunsun. Müsahibədə yuxusuz qalan anadan söhbət getsə də, oxucunun beynindəki o qırmızı nöqtəyə toxunmaq... kimsə buna yazı oxutdurmanın müasir üsulu deyirsə, biz buna qatılmırıq. Bunun adı jurnalistika deyil, qəbul edək..

Qonorar üçün yazmaqsa bir peşə gözəlliyidir. Hamıya bu gözəllikdən pay düşsün...

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016



# Neftin qiymәti 40 dollardan yuxarı olarsa…

## Ekspertlərə görə, hökumət gələn ili çox gərginlik fonunda deyil, daha manevr imkanlarını artıracaq bir şəraitdə keçirmək istəyir…

**Rusiyanın yaxın 3 il üçün dövlət büdcəsində neftin 40 dollardan götürüləcəyi qərara alınıb. Azərbaycanın büdcəsində də neft 40 dollardan nəzərdə tutulub. Ekspertlər musavat.com-a neftin yaxın illərdə hansı qiymət həddində qalxıb-enə biləcəyini açıqlayıblar.**

Ekspert İlham Şaban bildirib ki, Azərbaycan büdcəsində büdcəni 40 dollardan formalaşdırmaq doğru qərar hesab edilə bilər: “Risklər baxımından kifayət qədər normal yanaşmadır. Çünki hazırda beynəlxalq enerji institutları, enerji mərkəzləri, o cümlədən şirkətlər büdcələrini həmin həddə proqnozlaşdırırlar. Bu rəqəm 45-55 dollar arasında dəyişir. Şirkətlərin də bəziləri öz büdcələrini 40 dollardan götürüblər. İstənilən halda bu rəqəm büdcəni bazardakı təlatümlərdən, risklərdən qorumağa qadirdir. Əgər reallıqda həqiqətən qiymət 50 dollardan yüksək olarsa, o deməkdir ki, neftin qiyməti nəzərdə tutulduğundan 25 faiz və daha çox artım əldə edə bilir. Yəni artım isə büdcəyə köçürmələr, daxilolmalar, Neft Fonduna gələn gəlirlərin artımı, yığımın artımı deməkdir. Nəticə etibarı ilə hökumət gələn ili 2016-cı ildəki kimi çox gərginlik fonunda deyil, daha manevr imkanlarını artıracaq bir şəraitdə keçirə bilər”.

Mərkəzi Bank isə bildirir ki, dünya bazarında neftin qiymətinin 40 dollar səviyyəsindən yuxarı olması 2017-ci ildə Azərbaycanın valyuta ehtiyatlarını artıracaq. Bildirilir ki, gələn ilin büdcə layihəsində Dövlət Neft Fondunun büdcəyə nəzərdə tutulan 6,1 milyard manatlıq transferti diqqətə alınaraq neftin qiymətinin 40 dollardan yüksək olması durumunda valyuta ehtiyatlarında artım davam edəcək. Qeyd edək ki, Azərbaycanın məcmu valyuta ehtiyatları ilin əvvəlində 38 590,8 milyon dollara bərabər olub. İlin ilk yarısının yekunlarına görə, valyuta ehtiyatları 43 686,5 milyon dollara çatıb. Beləliklə, valyuta ehtiyatları ilk 6 ayda 5 095,7 milyon dollar və ya 13,2 faiz artıb.

“Caspian Barrel” isə sentyabrda Azərbaycanın neft gəlirlərinin nə qədər azaldığını hesablayıb. Bir ay ərzində Azərbaycan neftinin orta ixrac qiyməti cəmi 10 sent ucuzlaşsa da, gəlirlərə təsir xeyli olub. SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin açıqladığı məlumata görə, BTC FOB Ceyhan tipli xam neftin 2016-cı ilin sentyabr ayında orta satış qiyməti 47,30 dollar olub. Xatırladaq ki, cari ilin avqust ayında “BTC FOB Ceyhan” tipli xam neftin avqust ayında orta satış qiyməti 47,40 dollar dəyərində idi. “Caspian Barrel” Neft Şirkətinin mətbuat xidmətinə istinadən bildirir ki, SOCAR sentyabr ayında Ceyhan limanından 942 min 882 ton xam neft ixrac edib, Supsa limanından isə- 274 min 705 ton, avqust ayında isə bu göstəricilər müvafiq olaraq 1 milyon 273 min 708 ton və 87 min 177 ton olmuşdu. Avqustda SOCAR-ın Ceyhan və Supsa limanlarından ixrac etdiyi neftdən əldə etdiyi gəlirlər (bura dövlətin mənfəət nefti də daxildir- hansılar ki, Dövlət Neft Fondunda toplanır) 477 milyon dollar təşkil edib. Sentyabr ayında isə SOCAR bu iki limandan 426 milyon dollar dəyərində xam neft ixrac edib. Cari ilin sentyabrında Ceyhan və Supsa limanlarından Azərbaycanın neft ixracı avqust ayı ilə müqayisədə 143 298 ton azalıb. Dəyər ifadəsində isə azalma 51 milyon dollar təşkil edib. “Sentyabrda biz Ceyhan limanından neft ixracının avqusta nisbətən 330 826 ton azaldığını müşahidə edirik. Sentyabrın ilk 12 günü profilaktiki işlərlə əlaqədar Dərinsulu Günəşli platformasında BP hasilatı tam dayandırmışdı və bu zaman gündəlik olaraq 136 min barellik hasil itirilmişdi. Bu platformadan hasil edilən neft Ceyhan limanına ixrac edilirdi”,- deyə hesablamada vurğulanır.

Bəzi ekspertlər dekabrda neftin qiymətinin 60 dollar həddini keçə biləcəyini də proqnoz edirlər. “Bank of Amerika” Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) hasilatı azaltmaq barədə qərarının neft qiymətlərinə təsir edə biləcəyi, lakin qiymətin 70 dolları ötməyəcəyi qənaətindədir. Bankdan verilən açıqlamada OPEK-in gündəlik istehsalı 700 min barel azaltmaq barədə qərarının neftin qiymətində bahalaşmaya səbəb olacağı bildirilir. “Lakin OPEK-in hasilatı azaltması 2017-ci ilin ortalarına qədər ”Brent" markalı neftin qiymətinin 70 dollar/bareli üstələməsinə səbəb olmayacaq",- deyə bankın məlumatında deyilir. “Bank of Amerika” 2017-ci il üçün neftin orta qiyməti üzrə proqnozunun 61 dollar/barel olduğunu açıqlayıb.

❑ Röya RƏFİYEVA

# Akif Çovdarovun cinayət dosyesində daha bir sensasion epizod üzə çıxdı

## “Karvansaray” ticarət mərkəzi sahiblərindən işgəncələrin sonucu olaraq alınıb; 8 aylıq təzyiqlərdən sonra Nizami Quliyev 30 milyonluq əmlakı əldən verib…

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun cinayət işi hazırda Bakı Hərbi Məhkəməsinin icraatındadır. Proses qapalı keçirildiyindən Çovdarovun cinayət epizodlarının bir çoxu geniş ictimaiyyət üçün mübhəm olaraq qalmaqdadır.**

Bu gün iş üzrə zərərçəkmiş şəxslərin siyahısında “8-ci km bazarı”nın keçmiş sahibi Səfərov Cəfər Qürbət oğlu, onun qardaşı Səfərov Salman Qürbət oğlu, Əzimov Akif Mirzə oğlu, Novruzov Əyyub İsmayıl oğlu, Qurbanov Şahmar Sərdar oğlu, “Real” MTK tikinti şirkətinin həbsdə olan rəhbəri İlham Qasımov, onun oğlanları Nurlan və Lətif, qardaşı İslam Qasımov, Mirzəyev Tahir Əliş oğlu, Orucov Namiq Xudakərim oğlu, Quliyev Gülağa Məhərrəm oğlu, İbrahimov Tofiq Telman oğlu (Rusiyada yaşayır), “Şərurlu İsfəndiyar” kimi tanınan iş adamı İsfəndiyar Axundovun şəriklərindən biri olduğu deyilən, hazırda həbsdə olan biznesmen Quliyev Azər Cəlil oğlu, İmanov Şehman Məlik oğlu, Tağıyev Sədiyar Mübariz oğlu, Aşurbəyov İlqar Əziz oğlu, MTN-in sabiq əməkdaşı Rəcəbov Tofiq Zəbulla oğlu, Bakı Metropoliteninin keçmiş sədri Tağı Əhmədov, onun qardaşı oğlu Şövqü Əhmədov, onların qohumları Elşən Tağıyev, Kürdəmir Rayon İcra Hakimiyyəti (RİH) Başçısı Aparatının sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdirinin müavini Şükürov Əşrəf Xancan oğlu, Kürdəmir RİH-in keçmiş başçısı Məlikov Fəxrəddin Süleyman oğlu və digərlərinin adları var.

Bir müddət əvvəl APA-nın yaydığı xəbərdə bildirilirdi ki, iş üzrə şahid qismində milli təhlükəsizlik nazirinin müavini olmuş general Hilal Əsədov, onun həyat yoldaşı Nüşabə Əsədova, Akif Çovdarovun oğlu Ruslan Çovdarov, qızı Aidə Çovdarova, Akif Çovdarovun qohumu olduğu bildirilən Qulu Cəfərov və digərləri ifadə verəcəklər. Bu sayımızda A.Çovdarovun cinayət dosyesində yer alan “Karvansaray” ticarət mərkəzinin ələ keçirilməsi epizodunu diqqətə çatdırırıq.

Bakının Qaradağ rayonunda, “Sədərək” və “Binə” ticarət mərkəzlərinin yaxınlığında yerləşən “Karvansaray” ticarət mərkəzi sahiblərindən 2012-ci ildə zor və işgəncələrdən sonra alınıb. Ticarət mərkəzində payı olmuş Elşən Kərəm oğlu istintaqa ifadələrində deyib ki, “Karvansaray” MMC-ni 20-yə yaxın sahibkar 2010-cu ildən tikdirməyə başlayıb. Tikintiyə ümumilikdə 20 milyon manata yaxın vəsait qoyulub. 2012-ci ilin əvvəllərində A.Çovdarov “Karvansaray” MMC-nin rəhbəri Nizami Quliyevdən Eldar Mahmudov üçün 20 mağaza istəyib. Mağazaları vermək istəməyən sahibkarların qara günləri də elə bundan sonra başlayıb.

Ticarət mərkəzini tikən podratçı şirkətin rəhbərliyinə sahibkarlardan MTN-ə şikayət yazdırıblar. Bundan sonra hazırda Akif Çovdarovla müttəhimlər kürsüsünü bölüşən işçisi Səlim Məmmədov 2 ay ərzində ticarət mərkəzində yoxlama aparıb və sahibkarların podratçı şirkətə 4 milyon pul ödəməli olduğunu haqda saxta sənəd hazırlayıb. Həmin borcu isə sonradan 40 mağaza ilə əvəzləşdiriblər. Sahibkarlar düşünüblər ki, bununla problemləri bitib və mərkəzin açılışına hazırlığa başlayıblar. Lakin yenidən ticarət mərkəzinin qapısında MTN-çilər peyda olublar. Bu dəfə “Karvansaray” rəhbəri heç bir əsaslı səbəb olmadan MTN-ə, Akif Çovdarovun, ardından isə Hilal Əsədovun hüzuruna aparılıb. Ondan ticarət mərkəzini təhvil verib kənarlaşması tələb edilib.



Sahibkarın istintaqa dediklərindən: “Bizim MMC-nin rəhbərini Akif Çovdarov yanına çağırıb təhqir edir, söyürdü. Növbəti gün də Hilal Əsədov bunu təkrar edirdi. 8 aylıq dəhşətlərdən sonra ”Karvansaray" MMC-nin təsisçilik hüququ Eldar Mahmudovun yaxın qohumu Dilrübə Məhəmməd qızı İmranovanın adına keçdi. Dedilər ki, Dilrübə İmranova Eldar Mahmudovun həyat yoldaşının əmisi qızıdır. Dilrübə İmranova ora gəlib-getmirdi. Məni də icraçı direktor vəzifəsindən çıxarıb ora Natiq Hümbətovu qoydular. Dedilər ki, Natiq Hümbətov Akif Çovdarovun bacısı oğludur. Tutub bütün əmlakımızı əlimizdən aldılar, özümüzü də çöllərdə qoyublar. Hərəmiz ora əlimizdə olan pulu qoyub işləyib vergi ödəyəcəkdik. Əlimizdən aldılar. Biz heç kimə şikayət edə bilmirdik. Şikayət etsəydik, bizi də ora aparacaqdılar. Bir adamın ki, şəxsi türməsi olub, biz ona nə edə bilərdik?"

Yada salaq ki, “Karvansaray” ticarət mərkəzi Bakının Qaradağ rayonu ərazisindəki digər iki ticarət mərkəzinin - “Binə” və “Sədərək” ticarət mərkəzlərinin qonşuluğundadır.

Qeyd edək ki, Akif Çovdarova Cinayət Məcəlləsinin 145.3-cü (qanunsuz azadlıqdan məhrumetmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 179.3.1, 179.3.2 (mənimsəmə və ya israfetmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2 (Quldurluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə), 182.3.1, 182.3.2 (Hədə-qorxu ilə tələbetmə külli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə ), 228.4 (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə), 302.1, 302.2 (Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4 (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən hədə-qorxu tətbiq olunmaqla külli miqdarda və təkrar törədildikdə), 313 (Vəzifə saxtakarlığı), 341.2.1, 341.2.2 və 341.2.3-cü (Bir qrup şəxs tərəfindən silah tətbiq olunmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə ağır nəticələrə səbəb olduqda) maddələri, Səlim Məmmədova həmin Məcəllənin 145.3, 179.3.1, 179.3.2, 181.3.1, 181.3.2, 182.3.1, 182.3.2, 302.1, 302.2, 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4, 313, 341.2.1, 341.2.2 və 341.2.3-cü maddələri, Akif Əliyevə həmin Məcəllənin 145.3, 179.3.1, 179.3.2, 181.3.1, 181.3.2, 182.3.1, 182.3.2, 302.2, 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4, 313, 341.2.1, 341.2.2 və 341.2.3-cü maddələri və Orxan Osmanova isə həmin Məcəllənin 145.3, 181.3.1, 181.3.2, 182.3.1, 182.3.2, 302.2, 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4, 341.2.1, 341.2.2 və 341.2.3-cü maddələri ilə yekun ittihamlar irəli sürülüb.

Zərərçəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsinin təmin olunması üçün məhkəmə qərarları əsasında təqsirləndirilən şəxslər Akif Çovdarov, Səlim Məmmədov, Akif Əliyev və Orxan Osmanova məxsus ümumilikdə 33 milyon 466 min manat dəyərində əmlak və pul vəsaitlərinin, o cümlədən 8 milyon 967 min manat dəyərində ticarət və xidmət sahələri, istilikxanalar, balıqçılıq təsərrüfatları və sair əmlak kompleksi, torpaq sahələri, 24 milyon 445 min manat dəyərində fərdi yaşayış evləri, mənzillər, nəqliyyat vasitələri və 37 min manat dəyərində zərgərlik məmulatlarının üzərinə həbslər qoyulub.

❑ E.MƏMMƏDƏLİYEV

# Ünlü iş adamı Bakıda niyə cəzalandırıldı

**Ötən həftəsonu ölkənin bank sektorunda çox diqqətçəkən bir hadisə baş verdi. "İSR" Şirkətlər Qrupunun prezidenti milyarder İsgəndər Xəlilov gözlənilmədən Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərən "NIKOIL Bank"ın Müşahidə Şurasının sədri postundan istefaya getdi.**

Bu barədə bankdan yayılmış rəsmi xəbərdə qısaca olaraq qeyd edilib ki, səhmdarların növbədənkənar ümumi yığıncağında İ.Xəlilov öz xahişi ilə Müşahidə Şurasının sədri vəzifəsindən azad olunub. Onun yerinə Marina Valeryevna Kulişova təyin edilib. Bankdan onu da bildiriblər ki, Müşahidə Şurasının tərkibindən çıxsa da, İ.Xəlilov "NIKOIL Bank"ın səhmdarlarından biri olaraq qalır.

Qeyd edək ki, sentyabrın 15-də də "NIKOIL Bank"ın Müşahidə Şurasının tərkibində bəzi dəyişikliklər baş verib. İldar Müslümov, Sergey Mitirev və İvan Romanovski Müşahidə Şurasını tərk ediblər. Onların niyə bu qərarı verdikləri barədə isə məlumat yayılmayıb.

*****

Azərbaycanın bank sektoruna 1994-cü ildən daxil olan və kifayət qədər populyarlıq qazanan "NIKOIL Bank" İ.Xəlilovun maliyyəsi ilə yaradılıb. Onun bu bankı yaxın dostu, "LUKoil"prezidenti Vahid Ələkbərovun dəstəyi ilə yaratdığı sirr deyil. 2013-cü ildə metronun "28 may" stansiyasının yaxınlığındakı bankın mərkəzi ofisinin açılışında V.Ələkbərov da iştirak edib. Məlumdur ki, İ.Xəlilov 1994-2000 illər arası "LUKoil" prezidentinin əvvəl məsləhətçisi, sonra şirkətin Türkiyə üzrə nümayəndəliyinin rəhbəri və vitse-prezidenti olub.

Son aylar Azərbaycanın bank sektorundakı böhran təbii ki, "NIKOIL | Bank"dan da yan keçməyib. İddialara görə, bank ciddi maliyə çatışmazlığı ilə üzləşib. Amma bankın Müşahidə Şurasındakı müəmmalı istefalar və əsas fiqurun rəhbərlikdən getməsini diqqətçəkən edən daha ciddi səbəblər var. Belə ki, sentyabrın 6-da Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurası gözlənilmədən bankın 1, 2, 9 və 13 saylı filiallarının fəaliyyəti üçün verilmiş icazələri ləğv edib.

İcazələrin ləğv olunmasına səbəb sözügedən filiallarda NBNP tərəfindən müəyyən edilmiş sağlam kreditləşmə normalarına riayət edilməməsi, kassa əməliyyatlarında qanun pozuntusuna yol verilməsi, habelə uçotun təhrif edilməsidir. Bundan əlavə, yerində baxış zamanı bankın filiallarında olan mübadilə kassalarındakı faktiki qalığın balans məlumatından kənarlaşması müəyyən edilib. Yoxlama zamanı filialların kassalarında xarici valyutanın mövcud olmasına baxmayaraq, satış əməliyyatının aparılmadığı məlum olub. Nəzarət Palatası müəyyən edib ki, "kredit təşkilatlarında sağlam kreditləşmə və məsuliyyətli borclanma prinsipləri"nin tələbləri, borcalanın aylıq borc




## Milyarder İsgəndər Xəlilovun bankdan istefasının pərdəarxası - şok iddialar

### Rusiyadakı məşhur azərbaycanlının kapitalı ilə maliyyələşən "NIKOIL Bank"ın filiallarının qəfil bağlanmasına və rəhbərliyin ittiham olunmasına səbəb nə olub? İş adamının Müşahidə Şurası sədliyindən istefası haqlı suallar doğurur...

yükünün onun gəlirinə nisbəti əmsalı pozulub. O cümlədən, Nəzarət Palatasının aprelin 5-dən xarici valyuta ilə istehlak kreditlərinin verilməsinə qoyduğu bir aylıq qadağaya da əməl edilməyib, xarici valyuta ilə kreditlər verilib. Palatanın yaydığı məlumatda baş verənlərdə məhz bank rəhbərliyi günahlandırılıb. "Sadalanan səbəblər qeyri-sağlam və dayanıqlı bank təcrübəsinə zidd olmaqla idarəetmə sistemindəki fundamental problemlərdən qaynaqlanıb" deyə, məlumatda bildirilib. Bu, ittihamın birbaşa hədəfi isə, sözsüz ki, İ.Xəlilovdur.

Maliyyə Bazarlarına Nəzarət Palatası bank sektorunda yaranmış vəziyyəti normallaşdırmaq üçün prezident İlham Əliyevin fərmanı ilə yaradılıb ki, indi bank sektorunda əsas söz sahibi də bu qurumdur. Hətta Milli Bank sədri də bu kimi məsələlərə müdaxilə edə bilmir. Rusiyadakı milyonçu azərbaycanlıların (V.Ələkbərovun da banka şərikliyi barədə iddialar var) kapitalı ilə maliyyələşən "NIKOIL Bank"ın filiallarının bağlanması kimi sərt qərar, eləcə də rəhbərliyin açıq şəkildə ittiham olunması sıradan hadisə deyil. Üstəlik, baş verənlərdən sonra Müşahidə Şurasındakı istefalar, nəhayət İ.Xəlilovun özünün də rəhbərlikdən kənara çəkilməsi suallar doğurur.

*****

İ.Xəlilovun 1995-ci ildə yaratdığı "İSR" Şirkətlər Qrupunun Azərbaycan, Rusiya və Türkiyə ilə yanaşı digər ölkələrdə də ofis və filialları fəaliyyət göstərir. Holdinq illərdir ki, neft məhsullarının daşınması və satışı, yod istehsalı, maşın ticarəti və mehmanxana işi kimi çoxsahəli fəaliyyətlə məğuldur. "Hilton Baku Hotel"in sahibi olan İ. Xəlilovun biznesinin böyük hissəsi Rusiyadadır. İnternet üzərindən apardığımız qısa araşdırma onu deməyə əsas verir ki, milyarder həmyerlimizin biznes işləri Rusiyadakı böhrana baxmayaraq, pis getmir. Məsələn, holdinqə daxil olan "Resurs Treydinq" ASC Rusiyada dizel yanacağı və neft məhsullarının daşınması ilə məşğul olan ən böyük şirkətlərdən biri olaraq mövqeyinin saxlayır. Bu ilin mayında isə "Rusiya Dəmir Yolları" Qapalı QSC-nin elan etdiyi tenderdə holdinqin şirkətlərindən biri qalib gəlib ki, layihənin dəyəri bir neçə yüz milyon dollardır. Yəni İ.Xəlilovun Azərbaycandakı bankından fərqli olaraq Rusiyadakı biznesi böhranda deyil. Bu da bir daha diqqəti İ.Xəlilovun bankının filiallarının möhürlənməsinə (onların sırasında 11 ildir fəaliyyət göstərəni də vardı) və rəhbərlikdəki postundan qəfil istefasına yönəldir. "NIKOIL Bank"da olan problemlər indi bütün ölkə banklarında var və digərlərində vəziyyət bəlkə də daha pisdir. Yəni maraq mövzusu bankda baş verənlər deyil; bu, geniş oxucu auditoriyası üçün də ciddi maraq kəsb etmir. Amma İ.Xəlilov dünyaca məşhur personadır, "Forbes"in siyahısında olan azərbaycanlı iş adamlarından biridir.

*****

Məlumdur ki, İ.Xəlilov 2012-ci ildə yaradılmış Rusiya Azərbaycan Təşkilatları İttifaqında (Azərbaycan mediasında "Milyarderlər İttifaqı" kimi tanınırdı) təmsil olunurdu. Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun rəhbərlik etdiyi bu qurumda təmsil olunanların hakimiyyətlə münasibətlərində müəyyən gərginlik də yaranmışdı. O zamanlar İ.Xəlilov bu barədə məlumatları təkzib etdi və hakimiyyətlə heç bir problem yaşamadığını dedi. İ.Xəlilovun biznesinə, doğrudan da, heç bir təhlükə olmadı və biznesmen haqlı çıxdı. Bu ilin əvvəlində isə ölkə başçısı diaspora sahəsindəki xidmətlərinə görə İ.Xəlilova Azərbaycanın yüksək dövlət ödüllərindən birini verdi. Mümkündür ki, indi də milyarder bu tipli "gərginlik" iddialarını təkzib etsin. Amma bu dəfə də onun "sıxışdırılması"nı hakimiyyətlə münasibətlərində yaranmış gərginlikdə axtarmaq lazım gəlir. İddia olunur ki, İ.Xəlilovun holdinqinə daxil olan bir şirkətin Bakıda yaşayış binası tikintisi yarımçıq saxlanılıb. Pul verib, mənzili ala bilməyənlərlə bağlı ötən aylarda keçirilən məhkəmədə İ.Xəlilovun şirkətinin nümayəndəsi binanın yarımçıq qalmasının səbəbi kimi iqtidardakı yüksək mövqeli şəxsin adını çəkib. Əslində isə milyarderin binasının tikilməsinin yarımçıq dayandırılmasına Nazirlər Kabineti (NK) qərar veribmiş... NK rəsmiləri də məhkəmədə səslənən iddiadan sonra tikintinin onların qərarı ilə dayandırıldığını bir daha təsdiq etməyə zərurət görüblər...

*****

Bankda baş verənlərlə yarımçıq qalmış bina olayının bir-biri ilə əlaqəsi olduğunu iddia etmək fikrindən uzağıq. Amma Azərbaycanda bu kimi olayların heç də təsadüfən baş vermədiyini İ.Xəlilov da yaxşı bilər...

❑ **"YM"**

---

# Prezidentdən Qarabağ xəbərdarlığı



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**"Hazırda Ermənistan hakimiyyəti çətin durumla üzləşib, onlar xalqı inandıra bilmirlər ki, bu lazımdır". Prezident Putinin səlahiyyətli şəxslərindən biri, Rusiya prezidenti yanında İctimai Şuranın üzvü Sergey Markov deyib bunu. Əslində bu Markov apreldən sonra nağıl danışmaqla məşğuldur, az qala hər gün "bu il 7 rayon azad olunacaq" söyləyirdi. İlin sonudur deyə, erməni hakimiyyətinin halına "acıyır".**

"Xalqı inandıra bilmir"miş Sərkisyan. Hansı xalqı? Ermənilər özləri də etiraf edir ki, elə bu cani Sərkisyanın Qarabağa iddia üzərində hakimiyyəti qəsb etməsi səbəbindən Ermənistan ac-yalavac vəziyyətə düşüb, ölkədə cəmi 1,9 milyon adam qalıb, İrəvana əsgər meyitləri daşınır. Yay aylarında İrəvanda keçirilən aksiyalar, Qarabağ güzəştinə qarşı çıxan silahlı bandanın polis alayının binasını ələ keçirməsi də Sərkisyanın oyunu idi.

Bunu Amerikada da bilirlər, ATƏT-də də. Azərbaycan ərazilərini 25 ildir işğalda saxlayan işğalçının "İsgəndər" raketləri almasına heç bir reaksiya vermədilər. Necə olur ki, Amerika, ya ATƏT Azərbaycanı snayperlərini geri çəkilməyə çağırır, ancaq erməni hakimiyyətinə "İsgəndər"lə bağlı quru xəbərdarlıq belə etmir? Hətta ABŞ-ın məşhur "Stratfor" təşkilatı "İsgəndər"in işğalçıya verilməsini dolayısı ilə dəstəklədi, Rusiyanın bu addımı sayəsində bölgədə balansın yarandığını iddia etdi, bildirdi ki, Moskvanın bu addımı Azərbaycanı yeni hücum planından çəkindirəcək. Absurdluğun son həddidir. Amma buna da gedirlər. Çünki ortada konkret məqsəd-məram var və o məramın təməlində işğal altındakı ərazilərin Azərbaycana qaytarılması...dayanmır.

Suriya məsələsində toqquşan Amerika və Rusiya Qarabağa münasibətdə elə rahat anlaşırlar ki. Bu günlərdə ABŞ dövlət katibi Con Kerridən də "Markovsayağı" bəyanat eşitdik. İddia etdi ki, "tərəflərin sülhə hazır olmaması üzündən" hələ ki Qarabağ məsələsini həll etmək mümkün deyil. Bənzər bəyanatı bundan əvvəl Rusiya XİN rəhbəri Lavrov da vermişdi. Bir təpiklik canı olan Sərksiyana "ordunu Qarabağdan rədd elə" deməkdənsə, çeşidli nağıl uydururlar.

Bunlar tərəfləri necə sülhə gətirmək istəyirlər? Rusiya işğalçıya "İsgəndər" bağışlayır, Azərbaycana silah satmaqdan imtina edən Amerika isə Qarabağdakı separatçılara təmas xəttində yerləşdirilmək üçün ən müasir kəşfiyyat-müşahidə sistemi - C4ISR göndərir. Bunu "DQR baş naziri"nin sözçüsü Artak Bəyləryan "The National İnterest"ə şəxsən etiraf edib.

Bundan sonra nə ədalət gözləyək? Üstəlik, ABŞ-da Azərbaycanla bağlı dinləmələr keçirilir, hətta ora Qarabağ canisi Saakyanın oğlu "məruzəçi" kimi dəvət olunur. Artıq "cidanı çuvalda gizlətmək" mümkün deyil...

Prezident İlham Əliyev 7 oktyabrda bir çox mətləblərə aydınlıq gətirdi. Kifayət qədər açıq mətnlə dedi ki, böyük güclər ərazilərimizdə ikinci erməni dövlətini yaratmaq istəyir. Sitat: "Bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin".

Bu, kifayət qədər ciddi açıqlamadır. Özü də yalnız hökumətə ünvanlanmayıb, xalqa, ölkə müxalifətinə yönəlik açıq mesajdır. Normalda məhz prezidentin xəbərdarlığının ardınca xalq ayağa qalxmalı, ölkə başçısının mövqeyini müdafiə etməli və Qarabağı qoparmaq istəyən gücləri lənətləməliydi.

Ancaq təəssüf ki, "Qarabağ məsələsində bizimçün iqtidar-müxalifət anlayışı yoxdur" deyən müxalifət partiyaları bu bəyanatı sükutla qarşıladılar. Heç normal görünmür. Ali Baş Komandan tam aydın şəkildə Vətən müharibəsi çağırışı edib. Hər bir vətəndaşın borcudur ki, bu çağırışa səs versin, ortaya mövqe qoysun. Qarabağ yalnız prezidentin məsələsi deyil!!!

Baş leytenant Ramil Səfərov məsələsində iqtidar və müxalifət yerdə oldu və maksimum nəticəni qazandıq, beynəlxalq aləm Azərbaycan xalqının iradəsini gördü və susdu. Bu gün o iradəni Qarabağ məsələsində ortaya qoymaq gərəkdir. Səsimizi qaldırmalıyıq ki, növbəti danışıqlarda həm dövlət başçısının mövqeyi güclənsin, həm də Şuşanı bizdən qoparmağa çalışan dairələr yerində otursun...

Yox, əgər biz toplum olaraq sussaq, Azərbaycanı təslimçiliyə vadar etmək istəyənlər "baxın, ermənilərdən fərqli olaraq Azərbaycan xalqı sakit oturub, Qarabağ razılaşmasına etiraz edən yalnız hakimiyyətdir" deyəcəklər. Bəlkə bir dəfə də yalnız Qarabağ mitinqi keçirilsin?! Əminəm ki, Hacıbala Abutalıbov bu aksiyaya məmuniyyətlə icazə verər.



# Maşallah, Kamran

**Samir SARI**

**Gün o gün idi ki, futbolçu Maşallah Əhmədov SSRİ çempionatının bombardiri idi, 13 qol vurmuşdu, Oleq Protasov baxa-baxa qalmışdı və biz, o vaxtın futbol azarkeşləri Maşallahla qürur duyurduq.**

Heç birimizin ağlına gəlməzdi ki, Maşallah yetkin yaşa çatanda adlı-sanlı iş adamı olacaq və rayon böyükləri ilə birləşib başqalarına qarşı maxinasiyalar, müxtəlif driblinqlər edəcək.

30 il əvvəlin söhbətini edirəm. Dünyada Maradonanın, Matteusun, SSRİ-də Yakovenko, Rats, Yaremçuq, Zavarov, Belanovun fırtına qoparan vaxtlarıydı, bizim də püşkümüzə Maşallah düşmüşdü. Bir də İsgəndər Cavadov.

İkisi də yaxşı oynayırdı. İsgəndər texnikalıydı, rəqiblərinin başına it oyunu açırdı, aldadır, qollar vururdu, amma Maşallah sürətliydi, topu qabağa vurub dalınca düşür, hamını ötüb çatır, ikisini vura bilməyəndə, birini də vururdu.

Dostumuz Fariz vardı, hər dəfə Maşallahın topun dalınca qaçdığını görəndə deyirdi, vallah, bir gün Maşallah dayana bilməyəcək, qıraqdakı fotoreportyorları əzib şikəst edəcək. Arada elə şeylər olmuşdu, amma fotoreportyorlara ciddi xəsarət dəyməmişdi.

Bəli, Maşallah sürəti və güclü zərbələri ilə dalbadal qollar vurub SSRİ çempionatının bombardiri olmuşdu və o dövrün ən böyük idman qəzeti "Sovetskiy sport" onun haqqında "Molodets, Maşalla" başlıqlı yazı vermişd. Yazıda izah qeyd olunurdu ki, Azərbaycanda "molodets" sözü "maşallah" sözünə tən gəlir.

Bir gün yataqxanamızın bufetində oturub Maşallahdan danışanda bufetçimiz Natiq əlində futbol qumarına dair variantlar yaza-yaza dedi ki, ay uşaqlar, siz bayaqdan bizim Maşdını tərifləyirsinizmi. Dedik, bəli, "Sovetskiy sport" da yazıb. Natiq dedi: "Kimi, kimi, Maşdını mənim yanımda tərifləməyin, məhlə uşağımızdır, tay-tuşumuzdur". Dedik, Natiq, yaxşı oynayır axı, bax, bombardir də olub. Natiq dedi, a kişilər, biz uşaq vaxtı futbol oynayanda Maşdını oynatmırdıq ey, İmamzada haqqı, ancaq top daşıyırdı, uzağa gedən topları o qaçıb gətirirdi.

Biz, təbii ki, Maşallah Əhmədovun küçəlisi Natiqin bu sözlərinə etina etmədik, fikirləşdik ki, ola bilsin, düz deyir, Maşallah uşaqlığında elə olub, amma sonradan inkişaf edib və hazırda bir yerlərə çıxıb. Budur, Natiqin 30 yaşı yoxdur, ayağını sürüyə-sürüyə gəzir, amma, maşallah, Maşallah hələ də sprinter kimi qaçır.

Beləcə, biz öz qürur qaynağımıza azarkeşlik etməkdən vaz keçmədik. Çünki əlimizdə olan o idi. Bir də İsgəndər.

Əlbəttə, biz də o vaxt Kiyevdə olsaydıq, təkcə "Dinamo"nun ilk "onbirliyi"ndəki futbolçulardan kimi kumir seçəcəyimizi bilməzdik. Hamısı yaxşı oynayırdı. Amma bizdə seçim imkanı yox idi, ya Maşallahla İsgəndərə azarkeşlik etməliydin, ya da Jidkova.

Baxıram, biz o sindromdan xilas olmamışıq. Yenə əlimizdə bir-iki parlaq futbolçumuz var: Rəşad Sadıqov, Cavid Hüseynov. Birinci bu gün-sabah futboldan çıxacaq, o biri də bir-iki ilə türmədən çıxacaq.

Ona görə də məcburuq qapıçı Kamran Ağayevə azarkeşlik edək. Maşallah, o gün qapımızı yaxşı qorudu. Onun yerində dünyanın bir nömrəlisi Manuel Noyer olsaydı, Norveç millisi qapımıza azı 3 qol vuracaqdı. (Demirəm ki, Noyer Kamrandan zəifdir, sadəcə, yazıq Manuel ömründə bu qədər zərbə dəf etmədiyi üçün karıxıb qalardı).

İndiki yeniyetmələrin bizdən fərqi odur ki, onlar bu xüsusda eyforiyaya qapılmırlar. Dünən yaquarım və dostları deyirlər ki, bu cür oynasaq, almanlar qapımızı dolduracaqlar. Deyirəm, ay uşaqlar, bu saat böyürdən sizinlə yaşıd 6 alman uşağı çıxsa, onlarla futbol oynasanız, uduzarsınız? Deyirlər, alman olmur, lap braziliyalı olsun, çiləyərik. Biri deyir, onlara beş qol vurar, üçünü qapıçının ayaqları arasından keçirər. Özgüvən bu qədər, yəni. Baxıram ki, düz deyirlər, bizimkilər alman tay-tuşlarını udarlar.

Bəs böyüdükcə nədən fərq əcnəbilərin xeyrinə dəyişir? İzahı sadədir. Əcnəbilər məktəb keçir, öz üzərlərində çalışır, işə peşəkarcaına, ciddi yanaşır, məşq, qida rejiminə riayət edir, içkidən, qəlyandan, ora-bura sümsünməkdən imtina edir, ortaya bir şey çıxarırlar. Bizimkilər isə 5 manat pul görəndə deyirlər, Messi kimdi, əə.

Bax, o vaxt Gəncədə Maşdı ona görə inkişaf edib Maşallah Əhmədov olmuşdu ki, məktəb keçmişdi, özünü inkişaf etdirmişdi. Amma yetkinləşdi, 5 manat pul gördü, dedi, Bill Qeyts kimdi ki...

# Əkrəm Əylislinin istintaqından xəbər yoxdur - yazıçı susur

## Heç bir istintaq hərəkətləri aparılmır; yazıçının işi xətm edilə bilər; **vəkili:** "Yəqin ki, noyabradək bu məsələ yekunlaşacaq"

**Bu ilin martında barəsində xuliqanlıq maddəsi ilə cinayət işi açılan yazıçı Əkrəm Əylislinin istintaqından xəbər yoxdur. Dövlət Sərhəd Xidmətinin əməkdaşına qarşı zorakılıq törətməkdə ittiham olunan yazıçının istintaqı noyabra qədər uzadılıb.**

Artıq bu müddət də başa çatmaq üzrədir. Ə.Əylislinin istintaq müddətinin uzadılıb-uzadılmayacağı, cinayət işinə xitam verilib-verilməyəcəyi müəmmalıdır.

Yazıçı "Yeni Müsavat"a açıqlamasında istintaqın gedişi ilə bağlı məlumatsız olduğunu söylədi: "Bu barədə heç bir şey demək istəmirəm. Çünki məlumatsızam. Gərək yeni nəsə olsun ki, mən də onu sizə deyim. Bunlar olmadığı üçün sizlərə nə deyim? Əgər işin gedişatı ilə maraqlanmaq istəyirsinizsə, o zaman vəkildən bu barədə soruşa bilərsiniz. İşə xitam verilib-verilmədiyini də bilmirəm. Ən doğru məlumatı vəkil bilər. Mənimlə bu barədə heç bir söhbət olmayıb".

Ə.Əylislinin vəkili Elçin Sadıqov heç bir istintaq hərəkətlərinin aparılmadığını qeyd etdi: "Cinayət işi Bakı Şəhər Baş Prokurorluğuna gətiriləndə orada yalnız müstəntiqin şəxsiyyəti bizə elan olunub. Gözlənilir ki, yaxın vaxtlarda bəzi istintaq hərəkətləri aparılsın. Cinayət işinin istintaqı noyabra qədər uzadılıb. Hesab edirik ki, həmin vaxta qədər ya cinayət işinə xitam verilər, ya da iş məhkəməyə göndərilər. Əkrəm Əylislinin heç bir günahı yoxdur. O, Dövlət Sərhəd Xidmətinin əməkdaşını vurmayıb. Başdan-ayağa qurama bir cinayət işidir. İşə bəraətverici əsaslarla xitam verilsə, daha yaxşı olardı. Əks halda bir yazıçını yazdığı əsərə görə etmədiyi bir cinayət işində ittiham edib, təqsirli bilmək ölkənin nüfuzuna da xələl gətirir. Əkrəm Əylisli barəsində həbs qətimkan tədbiri yoxdur. Başqa yerə getməmək barədə iltizam tədbiri seçilib. Çox güman ki, aparılmalı olan əlavə istintaq hərəkətləri də yoxdur. Yəqin ki, yaxın vaxtlarda bu məsələləri yekunlaşdırarlar. Bu işlər yekunlaşandan sonra onun ölkədən çıxışına qoyulan qadağalarla bağlı aidiyyəti instansiyalara müraciətlər edəcəyik".



Əkrəm Əylisli

❑ **Cavanşir ABBASLI**

# "ABŞ-Rusiya anlaşması tezliklə mümkün olmayacaq"

## **Qabil Hüseynli:** "Kremlin Bəşər Əsəd rejimini müdafiə etməsi münasibətlərin nizama salınmasına imkan vermir"

**Dünya gücləri hesab olunan ABŞ və Rusiya arasında illərdir ki, gərginlik bitmir. Buna səbəb müxtəlif hadisələr olsa da, nəticə dəyişməzdir. Belə ki, son dövrlər iki ölkə arasında gərginlik yaradan əsas səbəblər Rusiyanın Şərqi Ukraynadakı fəaliyyəti və Suriyada Bəşər Əsədə olan münasibətdir. Xüsusilə də Suriya məsələsində dəfələrlə iki ölkə arasında danışıqlar aparılsa da, razılıq əldə olunmayıb.**



Qabil Hüseynli

Politoloq Qabil Hüseynliyə görə, iki dövlət arasındakı gərginliyin yaxın gələcəkdə başa çatacağını proqnozlaşdırmaq çətindir: "Çünki Rusiya elə bir mövqe sərgiləyir ki, bu, başda Amerika olmaqla, Qərb dünyasını açıq qarşıdurmaya təhrik edir. Misal üçün, Gürcüstan, Ukrayna hadisələrini buna misal kimi göstərmək olar. Bütün bunların ardınca Suriya məsələsi münasibətlərin gərginləşməsində zirvə nöqtəsi oldu. Çünki bu, təkcə Suriyada hakimiyyət, yaxud da hansısa digər bir strateji maraqla bağlı deyil. Suriya məsələsi qaçqın və miqrant axını, Avropada yaranan dəyərlərin təhlükə qarşısında qalması ilə bağlıdır. Son dövrdə Rusiya Suriyada dinc əhaliyə qarşı sözün həqiqi mənasında çox ciddi və təhlükəli siyasət aparır. Bu siyasət yüzlərlə və bəzən də minlərlə insanın tələfatı ilə nəticələnir. Bu baxımdan da Amerika Rusiyanın bu kimi hərəkətlərini barbarlıq kimi dəyərləndirir. Onun beynəlxalq tribunala verilməsini tələb edir. Artıq Avropa dövlətləri də Rusiyanın beynəlxalq tribunala verilməsi məsələsində Amerikanın mövqeyi ilə razılaşır. Belə hesab edirəm ki, tribunal tərəfindən faktlar toplanılıb araşdırılarsa, heç də Rusiya üçün xoş olmayan bir qərar çıxa bilər. Bu isə Rusiyanı daha da qızışdırar".

Politoloq bir aydan çoxdur Rusiyada nüvə hücumuna qarşı əhali üçün təlim keçirildiyinə də diqqət çəkdi: "Bu təlimlərdə minlərlə adam iştirak edir, yeni sığınacaqlar tikilir. Bir sözlə, Rusiya sanki nüvə hücumu ilə üzləşəcəkmiş kimi, ciddi hazırlıqlar görür. ABŞ isə son zamanlar nüvə silahlarının daha təkmil variantlarını sınaqdan keçirir. Açığını demək lazımdır ki, "bu qarşıdurmada dünya külə çevrilə bilər" kimi fikirlər səslənilsə də, hesab edirəm Amerika o qədər güclü silahlara malikdir ki, Rusiyanın hərbi texniki imkanları mühарibədə ABŞ-ın gücü qarşısında acizdir. Bəşəriyyət yeni dünya müharibəsini istəmir. Elə rusların özləri də bunun əleyhinədirlər. Sadəcə olaraq, siyasilər meydanı qızışdırır. Bu təhrikçi rolda Rusiyanın siyasi elitası daha fəaldır. Vaxtilə "Karib böhranı" ərəfəsində SSRİ daha güclü idi və Amerika ilə, demək olar ki, bərabər qüvvələr potensialına malik idi. Lakin o zaman ortaq məxrəcə gəldilər və "Karib böhranı" sovuşduruldu. İndi isə inanmıram ki, qüvvələr nisbətinin kəskin şəkildə ABŞ və NATO-nun xeyrinə olduğu bir dönəmdə Rusiya açıq qarşıdurmaya və yeni dünya müharibəsinə getsin. Bu Rusiya üçün tamamilə fəlakət ola bilər. Təbii ki, heç Amerika üçün də bunun nəticələri yaxşı olmaz. Ancaq hər halda daha çox itirən tərəf bəşər sivilizasiyası və Rusiya ola bilər".

Q.Hüseylinin sözlərinə görə, Amerika əslində Suriyada da "Ərəb baharı"nın davamı kimi nəsə başlatmaq istəyib: "Ancaq bunu sona qədər çatdırmağa resursları və deyərdim ki, səbri çatmadı. Türkiyə də Suriya məsələsində təbii ki, müəyyən rol oynayırdı. Amerikanın Suriyadan istədiyi, orada ədalətli rejimin qurulmasıdır. Hər halda öz açıqlamalarında bu cür bildirirlər. Ümumiyyətlə, Suriyada baş verənlərə görə bütün günahı Amerikanın üzərinə yıxmaq çətindir. Çünki bölgə dövlətlərinin özü Amerikadan daha fəal idilər. Amerika əgər Bəşər Əsədi yıxmaq istəsəydi, elə ilk gündən ora quru qoşunlarını yeridərdi. Sadəcə, bir koalisiya formalaşdırdı və havadan zərbələr endirməyə üstünlük verdi. Bunun ardınca isə Rusiyanın prosesə girərək birbaşa olaraq Bəşər Əsədi müdafiə etməsi, siyasi kompromislər üçün yer qoyumaması Suriyanın bir dövlət kimi darmadağın edilməsinə gətirib çıxardı. Suriyada sözün həqiqi mənasında bəşəri fəlakət yaşanır. Rusiya və ABŞ-dan başqa yerli dövlətlərin özü də Suriyanın indiki vəziyyətə düşməsində az rol oynamadılar. Bütün bunlar az qala, yeni dünya müharibəsinə gətirib çıxaran detonator rolunu oynamaqdadır. Bəşəriyyətdə əgər bu proseslərin üzərində sağlam təfəkkür qələbə çalarsa, sözsüz ki, prosesləri nəzarət altına almaq mümkün olacaq. İndi şəraitdə iki dövlətin rəqabəti və Rusiyanın da həddindən artıq Bəşər Əsəd rejimini müdafiə etməsi münasibətlərin nizama salınmasına imkan vermir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016

# "Danışan adamlar təhlükəli ola bilməz, susanların bir çoxu isə..."

## Zahid Oruc: "Vitse-prezidentlər təyin olunandan sonra hakimiyyətin nüvə mərkəzi dəyişəcək"

**"Baxış bucağı"**

**ABŞ və Rusiyanın münasibətlərindəki soyuqluq artıq növbəti gərgin fazaya daxil olub. Bu iki güc mərkəzi arasındakı savaş ritorikasının gündən-günə artması dünyanın təhlükəsizliyini təhdid etməkdədir. Deputat, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Orucla ölkə gündəmindəki aktul məsələləri dəyərləndirərkən əvvəlcə bu mövzudan başladıq.**

***- Zahid bəy, Vaşinqton və Moskva arasındakı gərginlik Azərbaycana nələr vəd edir? Hər iki ölkənin maraq dairəsində olan ölkəmiz bu qarşıdurmadan uduşla çıxa bilər, yoxsa "soyuq müharibə" bizə də arzuolunmaz perspektiv vəd edir?***

- Yaxın Şərqin və Qafqazın strateji mənada əhəmiyyəti bir-birinə bağlıdır. Böyük neft ehtiyatları, Orta Asiyaya gedən yollar, tranzit marşrutları və əlverişli coğrafi yüksəkliklər uğrunda mübarizələr və İran faktoru bizim regionda təhlükəsizliyi hər zaman kövrək edir. Ona görə də Moskva son illər ərzində siyasətində xeyli dəyişiklik edib. Əslində Azərbaycana gətirilən milyardlarla dollar dəyərində rus silahları Qərbi bu məkandan sıxışdırıb çıxarmağa yönəlib. Putinin öz sələflərindən bir fərqi də ondadır ki, hazırkı Rusiya başçısı yalnız Ermənistan hesabına Şimali Qafqazda sabitlik əldə edə biləcəyinə, "Cənub cinahı" adlandırdığı İrəvan vasitəsilə Qərbin bölgəyə yönələn hərbi təhlükəsinin qarşısını alacağına inanmadığından Azərbaycan siyasi elitası, parlament qrupları və silahlı qüvvələri ilə işləməyə başladı. Qərar hər iki tərəfdən qəbul olunduğundan proses işlədi və indi Moskva-Bakı arasında ittifaq yarandıqca Azərbaycan Qərb qarşısında daha müstəqil və inamlı görünür. Apreldəki "4 günlük müharibə"yə Avropadan və Ağ Evdən gələn reaksiyalar onu göstərdi ki, Qarabağda Azərbaycan əsgərinin bir metr irəliləməsi ermənilərdən daha çox anti-Rusiya dairələrini narahat edir.

***- Sizcə, niyə?***

- Ona görə ki, Qərb regionda yalnız bir halda möhkəmlənə bilir - Azərbaycan xalqı ruslara nifrət etsin. Uzun on illər bizim tarixi yaşantılarımız üzərindən şimal qonşumuza qarşı haqlı fobiya, şübhə və bir sıra hallarda düşmənçilik hisslərimizi körükləyənlərin hansı qitələrdə oturduğunu indi daha yaxşı başa düşmək olur.

***- Prezident İlham Əliyev Nazirlər Kabinetinin son toplantısında bir sıra mühüm tapşırıqlar verdi və hökumət üzvlərinin böyük əksəriyyəti iclas boyu qeydlər aparırdılar. Necə bilirsiniz, bu tapşırıqlar elə yazılan qeyd dəftərçələrində qalmayacaq ki?***

- Hökumətin postneft dövrünün sınağına necə tab gətirdiyini görmək üçün həmin müşavirədən təkcə bir detalı xüsusi qabartmaq istəyirəm - Azərbaycan prezidenti dövlətin xaricdən mal və məhsulların alınmasını dayandırmaq qərarını əsaslandırarkən bir anlıq düşünürsən ki, bütün nazirlik və komitələr çoxmilyonluq əməliyyatları yerli qurumlarla necə aparacaqlar. Axı, xaricə gedən külli miqdarda vəsaitin üzərində dövlət nəzarətini həyata keçirmək o qədər də asan deyil. Ona görə də prezident faktiki olaraq, hökumətin qeyri-çevikliyini tənqid etdi, bürokratizmin vaxt və pul itkisinə səbəb olduğunu dilə gətirdi və beləliklə, aparılacaq genişmiqyaslı islahatların kadr dəyişikliklərindən keçəcəyi ehtimallarını gücləndirdi. Neft dövrünün məmuru olmaqla münbit və ya şoran torpaqları dirçəldib onu ölkəsinin sərvətinə çevirməyi bacaran, sənaye inqilabı edib Azərbaycanda son məhsul istehsal etməyi bacaran, beynəlxalq bazarlara çıxmağa qadir olan, menecmentlik qabiliyyəti ilə ölkəsinin coğrafi və təbiət üstünlüyünü iqtisadi inkişaf amilinə çevirən xüsusiyyətlər tamam ayrı məziyyətlərdir. Hər halda tarixi təcrübə öz sözünü deyir - 90-ci illərdə sabitləşdirmə dövrünün komanda üzvlərinin bir çoxu indi siyasi elitamızın sıralarından təbii qaydada kənarlaşıblar. Prezident elan etdiyi yeni kursun hədəflərinə çatmaq üçün bütün siyasi, iqtisadi və kadr yeniləşməsinə gedəcəyinin iradəsini müşavirədə ortaya qoydu.

***- Ancaq hələ ki, köhnə tərkibdən ortaya çıxıb "məni bağışlayın, cənab prezident, işimin öhdəsindən gələ bilmirəm, xahiş edirəm istefamı qəbul edin" deyən yoxdur. Hökumətin tərkibinə və mövcud iqtisadi duruma diqqət yetirəndə hansı qənaətə gəlirsiniz, bu komandanın əsaslı şəkildə yenilənməsinə zərurət varmı, yoxsa elə köhnə tərkiblə də "Yol xəritə"sində əskini tapan qərarları icra etmək mümkündür?***

- Vitse-prezidentlər təyin olunandan sonra hakimiyyətin nüvə mərkəzi dəyişəcək və siz onda hətta könüllü istefaya getməyən şəxslərin artıq ictimai inkişafın qanunauyğunluqları ilə hesablaşmağa vadar olduqlarını görəcəksiniz. İdarəetmə islahatları zaman keçmişdə hakimiyyət içində xüsusi güc sahibinə çevrilmiş qüvvələrin yeni dövrün şərtləri və tələbləri qarşısında əvvəlki cazibədarlıqlarını xeyli itirdiklərini görüb ən azı fərqli iş metodlarına keçdiklərinin şahidi olacaqsınız. Ola bilər sizə elə gəlir ki, güclü parlament və məhkəmə nəzarəti olmadığı halda hökumət inersiya ilə əvvəlki illərin fəaliyyət prinsiplərindən əl çəkməyəcək. Lakin İlham Əliyevin liderlik məharəti və hakimiyyətin dayanıqlığı üçün həyata keçirdiyi inqilabi islahatlar qeyd etdiyiniz mənzərəni dəyişəcək.

***- Sizin parlamentdə bir sıra sahələrlə bağlı arqumentlərə əsaslanan təklifləriniz olmuşdu. Onları sistemləşdirib hökumətə təqdim etmək mümkün deyildimi?***

- Əslində hökumətin xalqdan gələn təşəbbüslərə, yaxud parlamentdəki çağırışlara səs verməsi hamımızın xeyrinədir. Çünki 90-cı illərin populizmi indi arxada qalıb və Milli Məclisin keçmişdəki oynadığı məşum roldan fərqli olaraq, hər birimiz çalşırıq ki, müasir dövrdə Azərbaycan dövləti zamanın yeni sınaqlarından güclü çıxsın. Bizim bir liderimiz var, lakin mandat daşıyan hər kəsin vəzifəsi başı üstündən asdığı müqəddəs portretə və elan etdikləri siyasi əqidəyə sədaqəti onun hərəkətli və dinamik bir fəaliyyətilə bu kursa xidmət etməsindədir. Danışan adamların təhlükəsi ola bilməz, susanların bir çoxu Şekspirin məşhur tarixi sözü ilə hərəkət edirlər - harada söz yoxdursa, orda çəki var!

***- İqtisadçı alim Qubad İbadoğlunun Qırğızıstan hökumətinə təqdim etdiyi təkliflər bu ölkədə islahatların həyata keçirilməsində böyük rol oynadı. Mövcud dövrdə Azərbaycan belə kadrlardan istifadə edə bilməzmi? Siz yeni komandada təmsil olunmağa layiq 5-10 namizədin adını çəkə bilərsinizmi?***

- Belə insanlar yüzlərlədir. Azərbaycan son illər ərzində beynəlxalq təhsil məkanından keçən, həmçinin bölgəni yaxşı tanıyan və idarəetmə sistemində püxtələşən kadrlarla zəngindir. Bizə Ukrayna kimi legioner siyasi elita gərək deyil. Əlbəttə, ordu quruculuğunda, yaxud idarəetmə sistemində hər zaman hazır modellər, xarici məsləhətçilər və müxtəlif beynəlxalq təcrübə gərəkdir. Lakin ölkəni qurmaq üçün millətimizin potensialından düzgün yararlanmaq yetərlidir ki, Azərbaycanı güclü dövlətə çevirəsən. Bilirsizmi, mən Humanitar forumlara necə yanaşıram? Bakını yüz illərlə neft məkanı kimi tanıyanlar bizdə ideyalara və qüdrətli fikirlərlə meydan olmadığını təqdim etməyə çalışırlar. Prezident qəlibləşmiş həmin stereotipləri dağıdır, ölkənin güclü ziyalı və alim ehtiyatının olduğunu, bizim aparıcı dünya fəlsəfi, siyasi və diplomatik məkana ixrac edə biləcəyimiz irsin mövcud olduğunu hamıya nümayiş etdirir. Hər halda, bütün xalqların savadlılıq dərəcəsindən və keçdiyi tarixin içərisindən yığıb-yığışdırdığı mühüm ənənələr var və onu belə güclü informasiya axınlarında itirməyənlərdən biri də bizik. Millətimizi aşağılayan ideologiya və miflərin heç bir əsası yoxdur. Ona görə də istedadlı insanlara Heydər Əliyevin münasibəti hər bir rəhbər, hökmdar, məmur və nəhayət, insan üçün nümunə olmalıdır. Güclü liderlər zəif adamlarla işləmir.

***- Yeri gəlmişkən, vəzifə təklifi gəlsə, ölkənin iqtisadi inkişafına töhfə vermək üçün qəbul edərsinizmi? Sizin çox gözəl təşəbbüsləriniz, dəyərli təklifləriniz olub. Ortaya çıxıb "mənə filan sahə üzrə səlahiyyət verin, bu sahəni 1-2 ilə yüksək səviyyəyə qaldırım" deyə bilərsinizmi?***

- Vəzifəyə can atanda insan bir çox məziyyətlərini itirir. Başlıcası, düşüncələrdə özünə yer etməkdir. Fikir sahibi olan hər kəsin hazırkı meydanda fəal rol oynamasını istəyən bir insan kimi istəyim odur ki, Azərbaycan ədalətin, imanın, mürüvvətin və qarşılıqlı hörmətin hökmranlıq etdiyi bir məmləkətə çevrilsin. Elşad bəy, təəssüf doğuran hal odur ki, bütün nailiyyətlərimizə uyğun olmayan ictimai bir bəlanı hamımız müşahidə edirik - qarşılıqlı aqresiya sanki artıb. Dəyər vermək, stimullaşdırmaq, motivasiya etmək və digər mühüm keyfiyyətlərin əvəzində bəzən heç bir özəl elmi, intellektual üstünlüyü olmayanların başqalarına çamur atdıqlarını görürük. Axı qrupda ələçi tələbələri sıradan çıxaranda rəqabət aparılacaq etalonları da ortadan götürmüş olursan. Ona görə bütün qrup savaşları, mənafe toqquşmaları və digər qovğaları aparanlar bilməlidir ki, prezident və xalqın istəkləri tamam başqadır. Millətimizin kiminsə şəcərəsini, regionunu və sosial mənşəyini araşdıran dövrü arxada qalıb. Bircə misal deyəcəm: Gürcüstan 2008-ci ildə 5 günlük müharibədə böyük itkilərə məruz qaldı, lakin o ölkənin yeni nəsli dünyada bir dövlət kimi yaşamağa haqqı olan xalqı ən uzaq qitədə yaşayanlara belə təqdim edə bildi. Buna görə də heç bir yüksək vəzifədə təmsilçilik uğrunda vuruşmamışam, yetər ki, irəlidə gedənlər, sovet təbiri ilə desək, avanqard olsunlar.

***- Bu günlərdə ən çox danışılan mövzular bunlardır: bank soyğunçuluğu, bahalıq, inflyasiya... Lakin bu vəziyyətə görə kimsə cəzalandırılmır, orta statistik azərbaycanlıdan başqa. Bu, normaldırmı? Niyə məsuliyyət daşıyanların heç biri ortaya çıxmağa cürət etmədi? Bəlkə də bununla həmin şəxslər prezidentə sədaqətli olduqlarını, ölkə başçısının islahatlarla bağlı qərarına yaratdıqları problemlərə görə günahlarını heç olmasa istefaları ilə "yuduqlarını" nümayiş etdirərdilər, elə deyilmi?***

- Bank sistemində hazırda yaşananlar iqtisadiyyatımızın əsəb tellərinə güclü təsir göstərdiyindən günah axtarışı təbiidir. Lakin nefti 160 ildir çıxaran bir xalq üçün çörəyimizi batırıb yediyimiz əsas yavanlıq məhz torpağın sıxılmış şirəsi olub. Uzun on illər bunun nəticəsində qeyri-real iqtisadi konyunkturada kreditlər, investisiya qoyuluşlarının sahə quruluşu hazırki çağın durumu meydana gətirib. İndi dövlətin vəzifəsi biznes strukruları, cəmiyyət və maliyyə qurumları arasında itmiş inamı bərpa etməkdir. Baxın, Gürcüstanı azərbaycanlılar və türklərin pulu ilə qururlar. Buna qarşı deyilik, lakin ölkədən çıxan valyuta bir neçə qat artıq dəyəri yaratmaq perspektivini də məhv edir. Ona görə də "dar ağacları" qurmaqdansa, sistemli yanaşmaları təqdim edib və hər gün xalqın qarşısına çıxıb yaranmış mürəkkəb problemləri həll etməliyik. Kudrinin çox sevdiyi bir söz var: müəllimin, həkimin və polisin maaşını həmişə qaldırmaq lazımdır, çünki onlar produktiv qüvvələrdir. Yerdə qalanlar özləri yaşayacaq...



**"Qərb regionda yalnız bir halda möhkəmlənə bilir - Azərbaycan xalqı ruslara nifrət etsin"**

**"İstəyim odur ki, Azərbaycan ədalətin, imanın, mürüvvətin və qarşılıqlı hörmətin hökmranlıq etdiyi bir məmləkətə çevrilsin"**

**Elşad PAŞASOY**



# Kərə ətirli demokratiya

Zamin HACI
zaminhaci@gmail.com

**Dörd il qabaq siqareti tərgitdim, o vaxtdan burnumdakı iybilmə reseptorları da 23 illik his-pasdan, qurumdan təmizləndi, Azərbaycanın qoxularını təzədən duymağa başladım. Bu qədər müddət burnumun ucundan iysiz-ətirsiz keçib getmişdi.**

Ancaq çox şad olduğumu da deyə bilmərəm. Xüsusən Bakının pis iylər verən şəhər olmasını kəşf etməyim kədərlidir. Dünənə qədər xoş əhvalla keçdiyim küçələrin əslində kif iyi verdiyini anlayıram. Yay aylarında ventilyasiyasız metromuzdan, yağlı tər basmış avtobuslarımızdan diksinirəm. Susuz, kasıb xalqımızın öz gigiyenasına diqqət ayıra bilmədiyini görüb sıxılıram.

Eyni zamanda, bir çox iylərin aldadıcı olmasını da anlayıram. Bu, xüsusən ərzaq məhsullarına aiddir. Ərzaq idxalı və istehsalını tamamilə inhisarına alan hakimiyyət burada millətə istədiyi zir-zibili qızılgül adıyla sırıya bilir. Hətta bunu gizlətmirlər də! Məsələn, dükanlarda yağ satırlar, tərkibi guya qarğıdalı və günəbaxandır, ancaq özü KƏRƏ ƏTİRLİDİR! (Fərqləndirmə mənimdir - Z.H.) Yaxşı, ironik ad da qoyublar: "Möcüzə" yağları. Doğrudan da bir millətə bitki yağını kərə ətri ilə sırımaq möcüzə olmalıdır. Soruşan yoxdur ki, bu kərə ətrini bu yağa hansı maddə verir. Bilmirsinizsə yazım: bu "kərə yağı ətri" diasetil adlı maddə sayəsində alınır. Diasetil Amerika və Avropanın bir çox ölkələrində qida maddələrinə ehtiyatla əlavə edilməsi məsləhət görülən, bəzi yerlərdə isə ümumiyyətlə qadağan edilən aromatizatordur. Səbəb isə odur ki, bu tip yağlarda uzun müddət popkorn istehsal edib satan bəzi ticarətçilərdə bronx xəstəlikləri yaranıbmış.

Saxta hər şeydən zəhləm gedir. İstər kərə ətri verən yağ olsun, istər demokratiya qoxulu diktatura. Təbii və səmimi olmaq lazımdır. Günəbaxan yağı satırsan, buyur, günəbaxan iyi ilə də sat, kim sənə nə deyir ki? Guya 20 ildir bu "möcüzə"lər yox idi, millət üsyana qalxmışdı? Teksunumuzu yeyib, soyamızı yalayıb, soyumuzu artırırdıq. O cümlədən, demokratiya imitasiyası iyrəncdir, sağlığa zərərlidir. Millət bilsə ki, heç bir seçki-zad olmayacaq, qaxılıb oturar xarabasında, bəzi cavanları polis tutub şöbəyə aparmaz. Yoxsa illərdir seçki iyinə gedirik, görürük bülleten dağlayırlar.

Tolerantlıq, dini sabitlik qoxuları da bunun bir təzahürüdür. Guya istənilən dindara azadlıq var, ancaq rəsmi şəkildə dindarlara yürüş keçirməyi qadağan elədilər, hətta şeyxdən bu yöndə fətva aldılar. İnsanların konstitusion hüququ var, onlar istədikləri temada, qanunu pozmadan, başqalarına mane olmadan sərbəst toplaşmaq, küçə yürüşü keçirtmək haqqı qazanıblar. Haçan qazanıblar, onu da yaza bilərəm: SSRİ-ni dağıdanda, yüzlərlə insanı qurban verəndə! Biz müstəqilliyi həm də küçə yürüşləri, azad toplaşmaq üçün istəyirdik. Azadlıqlar olmayan müstəqillik nəyimizə lazımdır? Azadlıq olmayan "azadlıq"ı neynirik? Bir ata sözündə deyilən kimi: "Ortasına dəymə, qırağından kəsmə, doğra, doyunca ye". Yeyirik. Hətta azadlığın bolluğundan bəzən qarın ağrısına düşürük.

"Bizdə tarixən məhərrəmlikdə yürüş olmayıb" - demaqoqiyası da hökumətin acizliyinin əlamətidir. İnsan hüquqları var, mən tarixi neynirəm? Ona qalsa bizdə tarixən padşah xoşu gəlməyənləri şaqqalayıb şəhər darvazasından asırdı. Bunu da edin, tam tarixi olsun.

Yürüşə normal yer ayır, təhlükəsizliyini təmin elə. Dövlətin işi budur. Dövlət "bu temada yürüş məsləhətdir, o biri yox" deyə bilməz. Daha doğrusu, azad dövlət deyə bilməz. Totalitarsan, buyur, de. Ancaq başqa dona girmə. Öz iyini ver.

Dünən eşitdim: polislər "Sədərək" yarmarkasında bir dükana basqın edib "Ya Hüseyn" yazılan köynəkləri müsadirə eləyiblər. Bu indi metoddurmu? Yaxana qanunla qadağan edilməmiş dini liderinin adını yazdırmaq olmazmış. Ancaq misal üçün, "YAP-la irəli", "Davamlı inkişaf", "ASAN-xidmət", "Sexy girl" yazılı tişortlar geyməyə heç bir qadağan yoxdur.

Bu işlərdən heç yaxşı iy gəlmir, xəbəriniz olsun.

# Kreml başçısının intriqalı regional turnesi

**Bu gün Rusiya prezidenti Vladimir Putin Türkiyəyə səfərə yollanacaq. Kremlin mətbuat xidmətinin məlumatına görə, o, 9-13 oktyabr tarixində İstanbulda keçiriləcək Beynəlxalq Energetika Konqresində iştirak edəcək. Putin forumun xüsusi sessiyasında çıxış edəcək, həmçinin toplantı çərçivəsində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşəcək.**



## Putinin Bakı və Ankaraya qarşı "at gedişi" - Türkiyəyə, oradan isə Ermənistana...

Rusiya prezidenti "Su 24" insidentindən sonra bu gün ilk dəfə qardaş ölkəyə gedir, cavab səfərindən əsas gözlənti; İrəvanda isə Putinin "Rus NATO-su"na erməni generalın rəhbər gətirilməsinə "dobro" verəcəyi deyilir; Azərbaycan üçün daha bir mühüm həftə başlayır...

"Görüşdə Rusiya-Türkiyə münasibətləri, Suriya böhranı daxil olmaqla, regional və beynəlxalq gündəmdəki məsələlər müzakirə olunacaq. İkitərəfli sənədlərin imzalanması da gözlənilir", - Kremlin mətbuat xidmətinin yaydığı məlumatda qeyd olunur. O da bildirilir ki, Konqresin işi ilə eyni vaxtda Rusiya-Türkiyə hökumətlərarası komissiya da işləyəcək.

*****

Rusiyalı və türkiyəli siyasi şərhçilər səfəri kifayət qədər önəmli hesab edirlər. Analitiklərə görə, Putinin Türkiyəyə cavab xarakterli, "Su-24" insidentindən sonra ilk dəfə baş tutacaq ziyarəti ikitərəfli əlaqələrin inkişafına yeni impuls verə, beynəlxalq terrorizmlə mübarizənin daha effektli qurulmasına yardımçı ola bilər. Xüsusən də turizm, iqtisadiyyat və energetika sahələrində Moskva və Ankara arasında anlaşmanın dərinləşəcəyi gözlənilir. O sırada "Türk axını" qaz kəməri layihəsi, Akkuyu AES tikintisi ilə bağlı mühüm anlaşmaların əldə olunması istisna olunmur.

"Təyyarə insidenti ilə bağlı böhran zamanı Türkiyənin Rusiyadakı, Rusiyanın da Türkiyədəki səfirləri geri çağırılmadı. Rusiyanın Türkiyəyə, Türkiyənin Rusiyaya ehtiyacı var. İki ölkə arasında müəyyən məsələlərlə bağlı fikir ayrılıqları olduğu sirr deyil. Məsələn, Suriya və Ukrayna məsələsində mövqelərimizin fərqli olduğu, anlaşa bilmədiyimiz sirr deyil. Ancaq hər iki ölkənin bir-birinə ehtiyacı var". Bu fikri Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin direktoru Ali Resul Usul Azərbaycan prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin təşkil etdiyi "Azərbaycanın qlobal və regional arenada rolu: reallıqlar və perspektivlər" mövzusunda Azərbaycanın müstəqilliyinin 25-ci ildönümünə həsr edilmiş beynəlxalq konfransda müzakirələr zamanı söyləyib.

Həm türkiyəli, həm də rusiyalı ekspertlər Putinin budəfəki Türkiyə səfərinin Rusiya-Azərbaycan münasibətlərinə və Qarabağ məsələsinin həllinə də pozitiv təsir göstərəcəyini ehtimal edirlər.

*****

Səfəri, yəqin ki, ən çox işğalçı Ermənistanda diqqətlə izləyəcəklər. Yeri gəlmişkən, İstanbul Konqresindən bir neçə gün sonra - oktyabrın 14-də İrəvanda "Rus NATO-su"na - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin dövlət başçılarının toplantısı gözlənilir. İrəvan toplantısının gündəliyində duran əsas məsələlərdən biri quruma yeni baş katibin seçilməsi ilə bağlıdır. Yeni rəhbərin Ermənistan nümayəndəsi olacağı iddia olunur.

Erməni mətbuatının yazdığına görə, Rusiya prezidenti Türkiyədən birbaşa Ermənistana gələ bilər. İddialara görə, Qazaxıstan prezidenti Nursultan Nazarbayev isə Bakıdan İrəvana təşrif buyuracaq. Erməni mediası iki prezidentin belə səfər marşrutu seçməsində (Nazarbayev Bakıdan, Putin İstanbuldan) mühüm simvol və işarələr görür.

"Bu, təkcə onun siqnalı deyil ki, Rusiya və Qazaxıstan türk maraqlarını prioritet sayır, bu, həmçinin balaca Ermənistanın əhəmiyyətinə və roluna verilən işarədir. Bu rol olmasaydı, iki böyük dövlətin başçıları Ermənistana baş çəkməzdən öncə Türkiyə və Azərbaycan qarşısında bəraət almağa çalışmazdılar", - deyə aparıcı erməni KİV-lərindən biri yazıb.

Ancaq o da var ki, Putin Türkiyədə oktyabrın 10-da olacaq. KTMT toplantısı isə 14-dədir. Doğrudur, Putinin Türkiyədə neçə gün qalacağı barədə bilgi yoxdur. Ola bilsin, Putin həqiqətən İrəvana İstanbuldan gəlsin, lakin İrəvanı da vaxtından əvvəl tərk eləsin. Yəni sadəcə, yeni baş katibə "dobro" verib Ermənistandan getsin. İstənilən halda, Putinin Türkiyədən sonra İrəvana gəlməsi onun Bakı və İstanbul səfərlərinə görə bir növ "vəfa səfəri" təsiri bağışlayacaq.

*****

O ki qaldı KTMT-nin yeni rəhbərinin kim olacağına, bəllidir ki, indiyədək 3 nəfərin adı çəkilib: Ermənistanın keçmiş müdafiə nazirləri - Seyran Ohanyan və Vaqarşak Arutunyan, bir də Qarabağ separatçılarının keçmiş lideri Arkadi Qukasyan. Onların ikisi (Xocalı canisi Ohanyan və Qukasyan) xüsusən də Azərbaycanda qıcıq yaradan namizədlərdir. Ankaranın narahatlığına da müəyyən əsaslar var. İstisna deyil ki, Putin Türkiyə səfəri ilə bu qıcıqları qismən yumşaltmağa çalışacaq. Bundan başqa, Nazarbayevin Bakı səfərində də yəqin ki, bu məqama toxunulacaq. Yəni qazax lideri Azərbaycanın baş katib məsələsində də konkret mövqeyi ilə KTMT-nin İrəvan sammitinə qatılacaq.

Lakin az öncə Ohanyan KTMT baş katibliyinə namizəd olmayacağını bəyan edib. Hərçənd, bunu deyərkən o, hələ müdafiə naziri idi. Postdan gedəndən sonra isə onun müxalifətə keçəcəyi haqda xəbərlər yayılıb. "Joxovurd" qəzetinin yazdığına görə, Sərkisyan istefadan öncə Ohanyana bir neçə vəzifə təklif edib: KTMT-nin baş katibi, Silahlı Qüvvələrin Baş Qərargah rəisi və Təhlükəsizlik Şurasının katibi vəzifələri. Ancaq Ohanyan hər üç təklifi rədd edib: "Ohanyan birbaşa deyib ki, müdafiə naziri postundan savayı onu heç bir başqa post maraqlandırmır" - nəşr qeyd edib.

Şəksiz ki, məsələdə həlledici sözü Putin deyəcək. Böyük ehtimalla, "Rus NATO-su"nun yeni baş katibi Arutunyan olacaq. "Ohanyan imtina etdikdən sonra KTMT baş katibliyini Vaqarşak Arutyunyanın namizədliyi üzərində dayanılıb". Bunu isə "Jamanak" qəzeti öz mənbələrinə istinadla yazıb.

Qeyd edək ki, Vaqarşak Arutyunyan əslən Gürcüstanın Samsxe Cavaxetiya bölgəsindəndir. O, 1999-2000-ci illərdə Ermənistanın müdafiə naziri olub.

*****

Bəs V.Putinin Azərbaycan və Türkiyəyə qarşı şahmat termini ilə desək, "at gedişi" Bakı və Ankaraya nə vəd edir, Dağlıq Qarabağ mövzusunda hansısa gəlişmə mümkündümü? Bir şeyi əminliklə qeyd eləmək olar ki, bu həftə Azərbaycanın da maraqlarına toxunan və o üzdən onun diqqətində olacaq mühüm olaylar gözlənilir.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016



# Prezidentin sensasion Qarabağ bəyanatı gündəmə çevrildi

## Dağlıq Qarabağın "müstəqilliyi"ni tanımaq üçün Azərbaycana kim(lər) təzyiq edir? Ekspertlərin fikrincə, dövlət başçısı ABŞ və Rusiyaya işarə vurub, amma...

**"Amerika, Rusiya, Fransa prezidentlərinin dəfələrlə bəyan etdikləri bir tezis var: "Dağlıq Qarabağda status-kvo qəbuledilməzdir". Bu, ancaq rəsmi qaydada səslənən bir tezis idi. Amma bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin".**

Bu sensasiyalı bəyanatla prezident İlham Əliyev Nazirlər Kabinetinin ötən həftə keçirilən toplantısında çıxış edib. Prezident bağlı qapılar arxasındakı söhbətləri açıqlamaq istəmədiyini də qeyd edib. Səbəbini isə diplomatiyanın öz qaydalarının olması ilə əsaslandırıb: "Ancaq həm Qərb mediasında, həm qeyri-hökumət təşkilatları tərəfindən bizə qarşı aparılan qarayaxma, şər-böhtan, təhqir kampaniyasının, həm də burada "beşinci kolon"a göstəriş verərək bunlardan istifadə etməyin əsas səbəbi bizi məcbur etməkdir ki, Dağlıq Qarabağın müstəqilliyinə razılığımızı verək. Bu, heç vaxt, olmayacaq. Nə qədər ki, biz iqtidardayıq, - referendum göstərdi ki, inşallah, biz iqtidarda çox olacağıq, - heç vaxt Azərbaycan buna razılıq verməyəcək, Dağlıq Qarabağ bizim ayrılmaz tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik".

Qeyd edək ki, prezident İlham Əliyev ilk dəfədir bu cür açıq şəkildə ifadə edir ki, qapalı görüşlərdə Azərbaycanı Qarabağı tanımağa məcbur etmək istəyirlər.

**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, Azərbaycan cəmiyyətinin bir hissəsində aprel döyüşlərindən sonra böyük dövlətlərin Ermənistan hakimiyyətinə təzyiq edəcəyi ümidi var idi. Ancaq Azərbaycan dövlət başçısının son açıqlaması bu ümidlərin özünü doğrultmadığına işarə idi: "Əksinə, təzyiq bizə var imiş. İndi Ermənistan prezidenti də rahat şəkildə cəmiyyətinə deyəcək ki, "gördüz, bizə heç bir təzyiq yoxdur, bunu rəsmi Bakı da etiraf edir". Ermənistana təzyiq yoxdursa, bununla böyük dövlətlər Cənubi Qafqazı böyük müharibəyə sürükləyirlər. Bizə başqa alternativ qoymurlar.




Diqqət etdinizsə, İlham Əliyev ABŞ-ın dövlət katibi Con Kerrinin adını çəkmədən onun "hər iki tərəf günahkardır, tərəflər buna hazır deyil, bu məsələ Fələstin-İsrail münaqişəsindən də mürəkkəbdir" fikrini tənqid etdi. Dövlət başçısı "bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin" deməklə ABŞ-dan təzyiqlə üzləşdiklərinə işarə vurdu. Ancaq İlham Əliyev Qarabağla bağlı çıxışının bir hissəsində ad çəkmədən Rusiyadan da narazı qaldığını bildirdi. Qeyd etdi ki, Ermənistanın böyük himayədarları var, biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Bax, budur məsələnin həll olunmamasının səbəbi. Bu cümlədən isə ən çox Rusiyaya "pay" düşür. Çünki Ermənistana silah və pul verən əsas ölkə məhz Rusiyadır".

**Deputat Zahid Oruc** bildirdi ki, Azərbaycanın bu müddətdə keçdiyi yol, iqtisadi-siyasi imkanlarının artması, buna paralel hərbi imkanlarının artması Azərbaycana qarşı olan layihələrin icrasına imkan verməyib: "Amma Qarabağın müstəqilliyi ilə bağlı, xüsusilə də bağlı qapılar arxasında aparılan təzyiq siyasətini istər ulu öndər Heydər Əliyev, istərsə də cənab prezident İlham Əliyev həmişə öz üzərində hiss edib. Uzun illər ayrı-ayrı dairələrin iddialarının, ittihamlarının əsassız olduğunu prezidentin açıqlaması bir daha sübuta yetirdi. Prezidentin açıqlaması bir daha sübut elədi ki, o, heç bir beynəlxalq sövdə, hər hansı bir hakimiyyət istəyi, siyasi marağı naminə ərazi bütövlüyü məsələsində tərəddüdlü mövqe tutmayıb, təzyiq qarşısında geri çəkilməyib və geri çəkilməməkdə də qərarlıdır. Bu aprel savaşından əvvəl də, sonra da hər zaman Azərbaycan qarşılaşdığı bir reallıqdır. Hesab edirəm ki, bu təzyiq Rusiyanın, ABŞ-ın, İranın, Qərb dairələrinin hansı mərhələlərdə hansı siyasətinə yarayıb, bunu təyin eləmək o qədər asan deyil. Amma nəticə birdir. Qarabağın müstəqilliyi prosesi əslində bu gün erməniçiliyin qəbrini qazır. Mən bu mövzuda ayrıca böyük bir müəllif yazısı ilə də çıxış edəcəyəm".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanın nüvə silahı olan tək müttəfiqi - Pakistanın baş naziri Bakıya nə ilə gəlir?




**Pakistanın baş naziri Nəvaz Şərif oktyabrın 13-15-də Azərbaycana rəsmi səfərə gələcək. Səfər zamanı Azərbaycan və Pakistan arasında ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri ən yüksək səviyyədə müzakirə ediləcək.**

Pakistanın prezidenti Məmnun Hüseyn 2015-ci ilin martın 11-də, müdafiə sənayesi naziri Rana Tanvir Hussain isə 2016-cı sentyabrın 26-da böyük nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olub. Bu səfərlərin ardınca Pakistanın baş nazirinin gəlişi ciddi hadisə hesab edilir. Pakistan Azərbaycanın nüvə silahı olan ən yaxın müttəfiqi sayılır. Bu ölkə ilə müttəfiqliyin dərinləşməsi nə vəd edir?

**Politoloq Natiq Miri bildirdi ki, Pakistan məhz Qarabağ torpaqlarını işğal etdiyi üçün Ermənistanı diplomatik səviyyədə tanımayan tək ölkədir, ikincisi, nüvə silahı olan tək müsəlman ölkəsidir:** "Üçüncüsü, müdafiə sənayesi inkişaf etmiş müsəlman ölkəsi kimi Azərbaycan üçün vacib bir dövlətdir. Dördüncüsü, Qarabağda savaş başladığı təqdirdə qeyd-şərtsiz, birmənalı Azərbaycanın yanında olacağını bəyan etmiş iki ölkədən biridir. Bütün bu amilləri və Azərbaycanın hər an onu boğmağa hazır olan ölkələr çevrəsində olduğunu nəzərə alanda Pakistanın dövlətimiz üçün nə qədər geosiyasi və geostrateji əhəmiyyət daşıdığı ortaya çıxır. Ayrıca Pakistan Türkiyə ilə də strateji müttəfiq ölkədir. Mələyə bu üç müttəfiq müsəlman ölkəsinin birliyi kontekstində yanaşanda Azərbaycanın təhlükəsizlik baxımından bu müttəfiqliyin əhəmiyyətinin daha böyük olduğu ortaya çıxır. Ona görə də Pakistan Azərbaycan üçün həm yaxın, həm də uzaq perspektivdə çox əhəmiyyətli müsəlman ölkəsidir. Bu baxımdan Pakistanla iqtisadi, siyasi, hərbi əməkdaşlıq yüksək səviyyəyə qaldırılarsa bu, ölkəmizin xeyrinə olar. Pakistanın baş nazirinin səfərini də bu kontekstdə dəyərləndirmək lazımdır".

Politoloqa görə, hazırda Azərbaycanın bir çox məsələlərə dair ortaq mövqedən çıxış etdiyi əsas iki dost, qardaş, müttəfiq ölkə var ki, onlardan biri Türkiyə, digəri isə Pakistandır: "Unutmaq lazım deyil ki, Pakistan 1991-ci ildə Azərbaycanın müstəqilliyini Türkiyə və Rumıniyadan sonra tanıyan üçüncü ölkə olub. Bundan başqa, rəsmi İslamabad Ankara ilə yanaşı, Dağlıq Qarabağ məsələsində Azərbaycanı dəstəkləməkdə və müdafiə etməkdə davam edir. BMT qətnaməsinə əsaslanaraq rəsmi Bakı da öz növbəsində, Pakistanı Kəşmir probleminin həll edilməsində dəstəkləyir. Bir sözlə, bu gün Azərbaycan



**Natiq Miri:**
"Bakı, Ankara və İslamabad arasında tezliklə hərbi müqavilə imzalanmalıdır"



**Üzeyir Cəfərov:**
"Hərbi sənayesi inkişaf etmiş nüvə dövləti ilə müttəfiqlik Azərbaycanın üstünlüyüdür"

Türkiyə və Pakistan arasında olduqca sıx əlaqələr mövcuddur. Rəsmi İslamabad dəfələrlə bəyan edib ki, Pakistan hər zaman Türkiyə və Azərbaycanın yanındadır, daim dost və qardaş ölkələri dəstəkləməyə davam edəcək. Odur ki, ikinci Qarabağ savaşı başlayacağı təqdirdə, şübhəsiz Ermənistana Rusiya hərbi, siyasi və iqtisadi dəstək verəcək, Azərbaycan isə qardaş ölkələrin - Türkiyə və Pakistanın yardımlarını alacaq. Bu səbəbdən də Bakı, Ankara və İslamabad mövcud əməkdaşlığı daha da möhkəmləndirməli, hətta tərəflər arasında tez bir zamanda hərbi müqavilə bağlanmalıdır. Ermənistanın Rusiya ilə belə bir sazişi mövcuddur. Yəni bunun üçün əlimizdə kifayət qədər əsas var".

**Hərbi ekspert Üzeyir Cəfərov da Pakistanla hərbi əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu, bu ölkədən modernləşdirilmiş JF-17 qırıcılarının alınmasının Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirdi:** "Bu gün dünyada 10 ən qabaqcıl hərbi-sənayesi inkişaf etmiş ölkə varsa, onlardan biri də Pakistandır. Və uzun illərdir ki, bizim ölkələrimiz arasında bütün sahələrdə, xüsusən də hərbi və hərbi-texniki sahədə ən yüksək səviyyədə əlaqələr mövcuddur. Biz yaxın perspektivdə Silahlı Qüvvələrimizin arsenalında Pakistan-Çin birgə istehsalı olan bu müasir döyüş texnikasını görmək imkanı əldə edəcəyik. Bu hərbi texnikanın çox böyük üstünlükləri var. Bir müddət əvvəl Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərdə olarkən "Azərbaycan bizim ürəyimizdə yaşayır, biz bunu hər zaman sübut etmişik" bəyanatı ilə çıxış etdi. Şübhəsiz, pakistanlı generalın "Azərbaycan bizim ürəyimizdə yaşayır" deməsi əbəs yerə deyil. Bu, bir daha onu təsdiqləyir ki, rəsmi Bakı və İslamabad bir çox məsələlərdə ortaq mövqedən çıxış edir, bir-birini dəstəkləyir, müdafiə edir. Odur ki, tərəflər arasındakı münasibətləri pik nöqtəyə çatdırmaq gərəkdir. Bu ilin yanvar ayının ortalarına ölkəmizə rəsmi səfər edən Pakistanın Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Zakaullahın səfər çərçivəsində səsləndirdiyi fikirlər də belə deməyə əsas verir ki, İslamabad ikinci Qarabağ savaşı başlayacağı təqdirdə Azərbaycana öz dəstəyini əsirgəməyəcək. Pakistan bu istiqamətdə mövcud şəraitə uyğun olaraq əlindən gələni edir. Məsələn, bir müddət əvvəl Azərbaycan Pakistandan orta və yaxın mənzilli müasir, yeni Ermənistanı darmadağın edə biləcək ballistik raketlər alıb. Bu barədə Pakistan kütləvi informasiya vasitələrində yayımlanan məlumatlarda deyilir ki, söhbət Pakistan istehsalı olan "Şahin-1" raketlərindən gedir. Bu raketlər 750 kilometr məsafədə hədəfi məhv etmək qabiliyyətindədir. "Hatf-1" raketi isə "Şahin-1"in təkmilləşdirilmiş formasıdır və daha uzaq məsafədə hədəfi vura bilir. Onun uçuş məsafəsi 3 min kilometrdir. "Pakistani defence" saytının məlumatına görə, bu raketlər yüksək dəqiqliyə malikdir və Hava Hücumundan Müdafiə sistemləri onu tuta bilmir. Raketlər strateji obyektlərin, komanda məntəqələrinin və infrastrukturun məhv edilməsi üçün nəzərdə tutulub. Hərbi sənayesi bu dərəcədə inkişaf etmiş bir ölkə ilə müttəfiqlik təbii ki, Azərbaycanın üstünlüyüdür".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016

# “Vosmoy bazarı” uğrunda gedən 15 illik savaşın ilginc detalları...

## Fərhad Əliyevin adamlarının mənimsədiyi ticarət mərkəzini onun həbsindən sonra Akif Çovdarovla Hilal Əsədov necə ələ keçirib; bazarın sahibinə təzyiq göstərmək üçün onun qardaşını kimlər oğurlayıb? - sensasion məktub



**8-ci kilometr (“Vosmoy”) bazarı ətrafındakı qalmaqal xeyli müddətdir ki, davam edir. Başı bəlalı bazar uzun illər yüksək vəzifəli şəxslər arasında bölüşdürülə bilməyib. Bazar ətrafında yaranan söz-söhbətlər bəzən mətbuatda da yer alırdı. Sonuncu olaraq isə “Vosmoy” bazarı uğrunda savaşın təfərrüatları Akif Çovdarovun həbsindən sonra ortaya çıxdı. Yeni təfərrüatlarda məlum oldu ki, həqiqətən də Bakının ən gəlirli bazarlarından olan “Vosmoy”un üzərində həmişə qara buludlar olub.**

MTN generalı Akif Çovdarovun həbsindən sonra ilk olaraq mətbuata üz tutan Cəfər Səfərov bazarın Çovdarov-Mahmudov qruplaşması tərəfindən əllərindən zorla alındığını, özlərinin isə MTN-də döyülərək işgəncələrə məruz qaldıqlarını iddia etdi. Cəfər Səfərov bazarın səhmlərinin Akif Çovdarovun qızının və Eldar Mahmudovun müavini olmuş general Hilal Əsədovun qayınatasının adına keçirildiyini dedi.

Akif Çovdarov ona verilmiş çoxsaylı cinayət ittihamları arasında yer alan “Vosmoy” bazarının qəsb edilməsi haqda istintaqa bildirib ki, bazarın zorla alınması haqda deyilənlər əsassızdır. Çovdarov istintaqa deyib ki, bazarın sonuncu sahibi olaraq bilinən Cəfər Səfərov MTN-ə bazarın ilk sahibi Çingiz Əsədovun şikayəti əsasında çağırılıb. Çovdarov əlavə edib ki, o, tərəflər arasında sülh olmasını şəxsən istəyib.

Bazarın ilk sahibinin yenidən oranı almaq üçün 300 min dolları olmadığını qeyd edən Çovdarov MTN rəhbərliyinin tapşırığı ilə bazarı özlərinin aldığını etiraf edib: “Həmin bazar, əslində, Fərhad Əliyevin olduğundan rəhbərlik bazarı tərəflərin hər ikisinin halallığı alınmaqla, mən və Hilal Əsədovun pulu ödəyib bazarı satın almağımızı təklif etdi”.

Bundan sonra bazarın 50 faizi Hilal Əsədovun qayınatası Ənvər Məmmədovun, 50 faizi isə Çovdarovun qızı Aidə Qasımovanın adına keçib. Sonra Ənvər Məmmədov öz payını qızı Nüşabə Əsədovaya bağışlayıb. Bu barədə adı çəkilən şəxslərin hamısı istintaqa çağırılaraq dindirilib.

Musavat.com bazarın qurucusu olan Çingiz Əsədovun baş prokurora və ölkə rəhbərliyinə etdiyi müraciəti əldə edib.

Ç.Əsədov müraciətində bazarın əlindən necə alınmasını və bu illər ərzində başına gətirilənləri yazıb. Ç.Əsədov qeyd edir ki, 1995-ci ildə Ədliyyə Nazirliyinin verdiyi 26985 nömrəli şəhadətnamə ilə “VEQA” elmi-istehsalat birliyinin “MARAL” Bakı şöbəsinin bazasında “Maral-Veqa” müəssisəsi yaradıb və həmin müəssisənin təsisçisi və əmlakının mülkiyyətçisi olub. Bunu sübut edən sənədlər indi də ondadır. O zaman Dövlət Əmlakı Nazirliyi tərəfindən verilmiş mülkiyyət hüququ haqqında şəhadətnamə ilə bazaran indi yerləşdiyi Naxçıvanski 50 ünvanında 1118,9 kvadratmetr ticarət və xidmət sahəsi “MARAL-VEQA” müəssisəsinin xüsusi mülkiyyəti olub. Bazarın faktiki ərazisi isə təxminən 7.800 kvadratmetr olub. Həmin torpaq sahəsinin ayrılmasına dair Bakı Şəhər Soveti tərəfindən müvafiq sərəncam da verilib.

### Ç.Əsədovun qara günləri necə başlayıb?

Bazarın təsisçisi məktubunda yazır ki, 1999-cu ildən bazarda ticarətlə məşğul olmağa başlayan Cəfər, Qəhrəman, Şahbaz, Səfər və Salman Səfərov qardaşları bir müddət sonra şərikli iş görmək üçün ona müraciət ediblər. Təklif olunan şərikliyə görə bazardan yığılan pulun 70 faizi Ç.Əsədova qalanı isə qardaşlara çatacaqmış. Bazarda icarə haqlarının yığılmasını isə qardaşlar həyata keçirəcəkmişlər.

Ç.Əsədov müxtəlif dövlət qurumları və fiziki şəxslərin bazarın fəaliyyətində ona çətinlik yaratdığını görərək qardaşların bu təklifi ilə razılaşıb.

Çingiz Əsədov sonradan ona problem yaradan şəxslərin qardaşlara dəyib-dolaşmadığını görüb. Və belə başa düşüb ki, bu problemlər də qardaşlar tərəfindən yaradılırmış ki, bazarı onlara icarəyə versin.

Şikayət dolu məktubunda Ç.Əsədov yazır ki, ona ən böyük problemlər zamanında iqtisadi inkişaf naziri Fərhad Əliyev tərəfindən yaradılıb. Gələcəkdə olacaqlardan xəbərsiz olduğunu qeyd edən Ç.Əsədov qardaşlardan bazarın bütövlükdə onlara icarəyə verilməsi ilə bağlı hər ay üçün 12.000 dollarlıq təklif aldığını və razılaşdığını bildirir.

Qardaşlar həmçinin icarə müddətində vergi onları incitməsin deyə problemlərin birdəfəlik həlli üçün Çingiz Əsədovun mülkiyyəti olan “MARAL-VEQA” müəssisəsinin bazasında tam ortaqlı yeni “MARAL-VEQA” müəssisəsi yaratmağı təklif edirlər. Çingiz Əsədov bu təkliflə razılaşsa da təsisçisi olduğu “MARAL-VEQA”nın əmlakını yeni yaranan müəssisənin balansına keçirməyib. Əldə edilən razılığa əsasən müəssisədə Ç.Əsədov və Cəfər Səfərov hərəyə 50 fazi paya sahib olacaqdılar.

Bundan sonra olanlarda yenə Çingiz Əsədov uduzan tərəf olub. Qardaşlar Ç.Əsədova verəcəkləri bir ilik icarə haqını rəsmiləşdirmək üçün ona yeni yaradılan müəssisədə olan 50 faiz payı onlara satmağı təklif ediblər. Ç.Əsədov izahını verməsə də bu təkliflə də razılaşdığını yazır.

Alqı-satqı müqaviləsində Ç.Əsədovun öz payını 136.800 manata Səfərov Cəfər Qulu oğluna satdığı göstərilib. Ancaq Ç.Əsədov şikayətində qeyd edir ki, həmin məbləğ Səfərov qardaşlarının bazarın icarəsinə görə ona bir il ərzində ödəyəcəkləri məbləğ olub.

Səfərov qardaşları 2002-ci ilin noyabr ayına kimi Ç.Əsədova 140 min dollar ödəyiblər. Ç.Əsədov 2003-cü ildə Səfərov qardaşlarına müqavilənin müddətini uzadıb-uzatmayacaqlarını öyrənmək istəyib. Aldığı cavab isə onu təəccübləndirib. Belə ki, qardaşlar ona deyiblər ki, bazar artıq onlara məxsusdur və icarə müqaviləsinə ehtiyac yoxdur.

### Fərhad və Rafiq Əliyev qardaşlarının işə müdaxiləsi

Ç.Əsədov bildirir ki, bundan sonra tərəflər arasında yaranan narazılıqlara Fərhad Əliyevin və qardaşı Rafiq Əliyevin müdaxiləsi açıq şəkildə başlayıb. Ç.Əsədov yazır ki, bazarda Səfərov qardaşları və onların ətrafında olan şəxslər tərəfindən bir neçə dəfə döyülüblər. Səbəb isə haqlarını tələb etmələri olub. Bu hadisə ilə bağlı Ç.Əsədov Nizami Payon Polis İdarəsinə şikayət edib. Amma Fərhad Əliyevin adının olduğu yerdə şikayətə baxılmayıb.

Daha sonra məhkəməyə müraciət edən Ç.Əsədov haqlı olduğunu sübut edə bilib. Və bazar ona qaytarılıb.

Bu zaman Rafiq Əliyev şəxsən bazara gəlib. Həmin vaxt bazarda Səfərov qardaşları və onların 50-yə yaxın adamı da olub. Səfərov qardaşları Ç.Əsədovu “BMW” markalı maşının yanına aparıblar. Onlar Rafiq Əliyevi qohumları olaraq Çingiz Əsədova təqdim ediblər.

### Bazar sahibi Rafiq Əliyevi qəzəbləndirib...

Ç.Əsədov məktubunda bildirir ki, Rafiq Əliyev ona əsəbi şəkildə xəbərdarlıq edib və niyə onlar üçün problem yaratdığını soruşub, ardınca onu təhqir edib. Təhqirlər qarşılıqlı olandan sonra R.Əliyev bazar sahibinin və onun yanında olan qardaşının döyülməsi tapşırığını verərək oradan uzaqlaşıb. Həmin hadisənin səhəri bazara nəzarət yenə Səfərov qardaşlarına keçib.

Bir müddət sonra tərəflər guya aralarında razılıq əldə etmək üçün yenidən görüşüblər. Bu görüş təklifi də Səfərov qardaşlarından gəlib. Ç.Əsədov müraciətində yazır ki, Səfərov qardaşlarının ağsaqqal kimi təqdim etdikləri Seyid adlı şəxs bu görüşdə məsləhətçi və söz sahibi kimi iştirak edib. O, təklif edib ki, bazar onun, Səfərov qardaşlarının və C.Əsədovun arasında 3 hissəyə bölünsün. Bundan əlavə Ç.Əsədova 150 min dollar ödənilsin. Ç.Əsədov bu təkliflə də razılaşıb.

Ç.Əsədov qeyd edir ki, məhkəməyə etdiyi müraciəti geri götürdükdən sonra yenidən aldadılıb. Ona nə bazardan gələn gəlirdən pul, nə də deyildiyi kimi nağd ödəniş edilib. Buna görə də o yenidən məhkəməyə müraciət edib.





### Bazar sahibinin qardaşı necə oğurlanıb?

Bu hadisədən sonra Ç.Əsədovun Əsrəddin adlı qardaşı yoxa çıxıb. Qardaşının itkin düşməsindən iki gün sonra naməlum şəxs Ç.Əsədova yaxınlaşaraq ona Səfərov qardaşları ilə əlaqə saxlamasını deyib.

Ç.Əsədov müraciətində deyir ki, qardaşı və ailəsi ilə hədələndiyinə görə “MARAL- VEQA” müəssisəsini bazarla birlikdə onlara satması ilə bağlı sənədə qol çəkib. Elə bundan bir saat sonra Ç.Əsədovun qardaşı sərbəst buraxılıb. Səfərovlar Ç.Əsədova ailəsinə dəyməyəcəkləri ilə bağlı söz də veriblər. Ç.Əsədov sonradan qardaşının “Yeganə” şadlıq sarayının zirzəmisində saxlanıldığını və orada Qəhrəman, Salman, Cəfər qardaşlarının olduğunu öyrəndiyini müraciətində yazır.

Ç.Əsədov bütün bu olanlardan sonra bütün dövlət qurumlarına, hətta MTN-ə müraciət edib. Lakin Fərhad Əliyevin adı və müdaxiləsi bu müraciətləri cavabsız qoyub.

### Bazar sahibi Fərhad Əliyevin həbsindən sonra hərəkətə keçib

Fərhad Əliyev 2005-ci ildə həbs edildikdən sonra Ç.Əsədov üçün yol açılıb. O, MTN-nə üz tutub. Bazarın əlindən alındığını, qardaşının oğurlandığı deyib. MTN-də onu hələ o zaman polkovnik olan Akif Çovdarov qəbul edib. Ç.Əsədov başına gələnləri Çovdarova danışıb. Təxminən 2 saat sonra MTN-nin binasına Səfərov qardaşlarından Cəfər gəlib.

Ç.Əsədov yazır ki, bundan sonra danışıqlar bu üçlük arasında olub. Çovdarovla görüş zamanı Cəfər Səfərov ona qarşı etdiklərini, qardaşını oğurladıqlarını etiraf edib. Tərəflər arasında guya Çovdarovun kabinetində razılıq olub. Həmin razılığa görə, Cəfər Səfərov bazara çəkdiyi 300 min dollar xərci istəyərək yenidən bazarı Ç.Əsədova qaytaracağına söz verib.

Bazarı yenidən almaq üçün 300 min dollarının olmadığını deyən Ç.Əsədov məktubuna əlavə edir ki, bu zaman Akif Çovdarovdan ona təklif gəlib.

Məktubda yazılana görə, Çovdarovun təklifi belə olub ki, o, bazarı almaq üçün Ç.Əsədova kömək edəcək və onlar bazarı birlikdə işlədəcəklər. Akif Çovdarov Elşən Hüseynov adlı şəxsi Ç.Əsədovun yanına göndərir. Onlar birlikdə notariusa gediblər. Burada bazar Çovdarovun adamının adına keçirilməli idi.

### Bazarı almaq üçün pul Rafiq Əliyevin pay sahibi olduğu bankdan götürülübmüş

Ç.Əsədov əlavə edir ki, müqavilə bağlanan zaman Cəfər Səfərov bildirib ki, o, bazarı “Bank of Baku”da girov qoyaraq 120.000 dollar kredit götürüb. Buna görə də mülkiyyət hüququ haqqında şəhadətnamə bankdadır. Çovdarovun adamı 300 min dollardan əlavə Səfərov qardaşlarının banka olan 78 min dollar borcunu da ödəyərək şəhadətnaməni alıb.

Məlumat üçün onu da bildirək ki, Rafiq Əliyev qardaşları kreditin götürüldüyü “Bank of Baku”da da pay sahibi olublar. Məhz Səfərov qardaşlarına ayrılan kreditə görə Səfərov qardaşlarının şərit yaratdığı bildirilir.

Ç.Əsədov dövlət qurumlarına müraciətində qeyd edir ki, o, öz istəyi ilə bazarı Çovdarovun adamı Elşənə satmaq istəyib. Səbəb olaraq isə səhhətindəki problemləri və Səfərov qardaşlarından ehtiyat etməsini göstərib.

Elşən Hüseynovla Ç.Əsədov arasında razılıq belə olub ki, Elşən bazara görə əlavə olaraq Əsədova 150.000 dollar nağd, hər ay isə 5.000 manat pul verəcək. Ç.Əsədov bundan sonra rahat yaşamağa başladığını məktubunda qeyd edərək, onun üçün yeni problemlərin Eldar Mahmudovun işdən çıxarılması və Akif Çovdarovun həbsi ilə başladığını bildirir.

Səfərov qardaşları da Çovdarovun həbsindən sonra bazarı geri almaq üçün hərəkətə keçiblər. İlk olaraq Ç.Əsədovun yanına gediblər və Çovdarovun həbs edildiyini deyərək, birlikdə bazarı yenidən geri almağı təklif ediblər. Bunun üçün də onun şahidlik etməsini təklif ediblər.

Lakin Ç.Əsədovun dediyinə görə, o, bu təkliflə razılaşmayıb və özü Baş Prokurorluğa gedib və başına gələnləri danışıb. Həmçinin Səfərov qardaşları da prokuroluğa müraciət ediblər. Ç.Əsədov Səfərov qardaşları ilə aralarında olan telefon danışıqlarının səs yazısını da prokurorluğa təqdim edib.

Sonda onu qeyd edək ki, Akif Çovdarov işində Səfərov qardaşları zərərçəkmiş şəxs kimi tanınıblar. Ç.Əsədov isə çoxsaylı şikayətlərinə baxmayaraq bu işdə sadəcə olaraq şahid kimi tanınıb.

Yazıda adı çəkilən hər kəsin mövqeyini dərc etməyə hazırıq.

❑ **İlkin Muradov**
❑ **Musavat.com**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016

# Qarabağ anlaşması önündə əsas əngəl - ikili standart

## Bir-biri ilə ədavətdə olan Rusiya və ABŞ-ı nədən işğalçıya münasibətdə ortaq himayə birləşdirir? Azərbaycan daha da güclənmək zorundadır; prezidentin xalqa son Qarabağ mesajının pərdəarxası...

**Dağlıq Qarabağ probleminin həllinə aprel döyüşlərindən sonra yaranan kövrək ümidlər özünü doğrultmadı. Sülh danışıqları yenidən qeyri-müəyyənlik və durğunluq fazasına girib. O da faktdır ki, indi nə Rusiya, nə də ABŞ səviyyəsində hər hansı təşəbbüskarlıq ortada yoxdur. Prezidentlərin may Vyana və iyun Sankt-Peterburq görüşlərindən sonra nizamlama prosesi, ümumiyyətlə, dayanmış kimidir.**



Bəzi müşahidəçilər hesab edir ki, bunun aparıcı səbəbi son vaxtlar Moskva və Vaşinqton üçün Suriya böhranının daha böyük aktuallıq kəsb etməsi, iki paytaxtın az qala, qarşıdurma səviyyəsinə gəlməsi ilə bağlıdır. Bu da istər-istəməz Rusiya və ABŞ-ın maraqlar sferasında olan başqa bölgələrdə də dil tapmasını daha da çətinləşdirir.

Lakin Vaşinqton və Moskva arasında Suriya problemi yaşanmayan dövrdə də Qarabağ ixtilafının həllində həlledici ortaq səylərin şahidi olmadıq. ABŞ dövlət katibi Con Kerrinin son açıqlaması isə ("Azərbaycan və Ermənistan rəhbərləri konfliktin həllinə hazır deyillər") Kremlin ənənəvi yanaşmasından əsla fərqlənmir. Niyə?

Çünki Rusiya da yaxasını kənara çəkmək üçün vaxtaşırı "Azərbaycan və Ermənistan razılığa gəlsin, biz istənilən həllə qarant durmağa hazırıq" mövqeyindən çıxış edir, faktiki, indi ABŞ da.. Halbuki, hamı bilir ki, Ermənistan Qarabağ məsələsində müstəqil deyil. O üzdən hər iki yanaşma faktiki surətdə işğal rejimini uzatmağa xidmət edən, demək, elə işğala dəstək verən yanaşmadır. Belə vəziyyət isə təbii ki, ən çox ərazisinin 20 faizi on illərdir işğal altında olan Azərbaycanı narahat edir.

***

"Danışıqlarda tətbiq edilən ikili standartlar münaqişənin həllinə mənfi təsir edir". Bu sözləri Azərbaycan prezidenti İlham Əliyev ötən həftəsonu Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda deyib.

"Aprel döyüşlərindən sonra vasitəçilər bir qədər fəallaşdılar. Bilirsiniz ki, may-iyun aylarında görüşlər keçirildi. Amma artıq biz oktyabr ayını yaşayırıq. Ermənistan öz çirkin taktikasını işə salaraq və erməni lobbisinin dəstəyinə arxalanaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın. Biz buna imkan verməməliyik və məsələ tezliklə həllini tapmalıdır. Amma siz də, Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, bu məsələnin həll olunmaması təkcə Ermənistana görə deyil. Ermənistanın böyük himayədarları var: biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Bax, budur məsələnin həll olunmamasının səbəbi. Biz yaxşı bilirik ki, ikili standartlarla üzləşmişik və bu məsələnin həll olunmaması BMT Təhlükəsizlik Şurasına da şərəf gətirmir. Çünki onlar dörd qətnamə qəbul ediblər" - prezident vurğulayıb.

Ölkə başçısı bu yerdə Kerrinin son bəyanatına da toxunaraq deyib: "Bu, yumşaq desək, təəccüb doğuran bəyanatdır. Azərbaycanı konfliktin həll olunmamasında günahlandırmaq ən azından, insafsızlıqdır. Digər tərəfdən, bax, bu bəyanat o biri bəyanatlarla necə uzlaşır?! Axı, Amerika, Rusiya, Fransa prezidentlərinin dəfələrlə bəyan etdikləri bir tezis var: "Status-kvo qəbuledilməzdir". Biz bunu alqışlayırıq. Düzdür, bu sözdən sonra heç bir praktik iş aparılmır. Amma hər halda bu sözün artıq ortaya çıxması bizim böyük uğurumuzdur. Belə bir ciddi bəyanat ola-ola, "hər iki tərəf günahkardır, tərəflər buna hazır deyil, bu məsələ Fələstin-İsrail münaqişəsindən də mürəkkəbdir" demək, sadəcə olaraq, Ermənistanın işğalçı siyasətinə dəstək verməkdir... Hesab edirik ki, tezliklə bu ifadələrə ən yüksək səviyyədə düzəliş edilməlidir. Əks təqdirdə, vasitəçilik missiyası şübhə altına düşə bilər".

İlham Əliyev Qarabağla bağlı olduqca mühüm bir detala da toxunub. Faktiki, Azərbaycan xalqına mesaj verib. Sitat: "Bu, ancaq rəsmi qaydada səslənən bir tezis idi. Amma bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin. Biz indi bunları açıqlamırıq. Çünki diplomatiyanın öz qaydaları var. Ancaq həm Qərb mediasında, həm qeyri-hökumət təşkilatları tərəfindən bizə qarşı aparılan qarayaxma, şər-böhtan, təhqir kampaniyasının, həm də burada "beşinci kolon"a göstəriş verərək bunlardan istifadə etməyin əsas səbəbi bizi məcbur etməkdir ki, Dağlıq Qarabağın müstəqilliyinə razılığımızı verək. Bu, heç vaxt olmayacaq. Nə qədər ki, biz iqtidardayıq, - referendum göstərdi ki, İnşallah, biz iqtidarda çox olacağıq, - heç vaxt Azərbaycan buna razılıq verməyəcək, Dağlıq Qarabağ bizim ayrılmaz tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik".

***

Həmsədr dövlətlərin Qarabağla bağlı ölkə başçısının toxunduğu ikili standart siyasətinə dair daha bir ilginc fakt: bu günlərdə bəlli olub ki, Krımın işğalına görə Rusiyaya qarşı sanksiyalar tətbiq edən ABŞ Qarabağ separatçılarına




gizlicə hərbi müşahidə-kəşfiyyat sistemi ötürüb - hansı ki, təmas xəttində Azərbaycan tərəfinin hərbi xarakterli hərəkətlərinə daha yaxşı nəzarət imkanı verəcək (Virtualaz.org). Söhbət C4İSR adlı ən son texnologiyaya əsaslanan kəşfiyyat-müşahidə sistemindən gedir.

Bəs görəsən, separatçılara Amerikanın neytral vasitəçilik missiyası ilə bir araya sığmayan canıyananlığının motivi nədir? ABŞ-ın "The National İnterest" dərgisinin yazdığına görə, qondarma Dağlıq Qarabağ "hökuməti" təsdiq edir ki, bu qabaqcıl sistemin təmas xəttində yerləşdirilməsi Azərbaycan ordusunun "qəfil hücum ehtimalını xeyli azaldacaq". Çünki həmin sistem imkan verir ki, yaxın və uzaqmənzilli kameraların köməyi ilə təmas xəttindən dərinliklərdə istənilən hərəkət qeydə alınsın. "Nəticədə Qarabağ qüvvələri müdafiəyə və əks hücuma hazırlaşmaq, öz qoşun hissələrini və texnikasını əvvəlcədən hazırlıq vəziyyətinə gətirmək imkanı əldə edəcək" - jurnal yazıb.

Məlumatlara görə, Rusiya, Çin, Hindistan kimi ölkələr də bu cür sistemlərin yaradılması üzərində iş aparırlar. Ancaq C4ISR məhz ABŞ tərəfindən işlənib hazırlanmış sistemdir. Şübhəsiz ki, Ermənistan büdcəsinin imkanları ABŞ-dan bu cür qabaqcıl sistemi almağa imkan vermir və ola bilsin, maliyyəni Amerikadakı erməni diasporu ödəyib.

***

İndi o - Rusiyanın Ermənistana himayəsi, bu da - ABŞ-ın işğalçıya birbaşa dəstəyi, onu Azərbaycan qarşısında daha hazırlıqlı eləməsi. Bir yandan beynəlxalq hüquqdan dəm vurub, digər yandan işğalçını müdafiə eləməyin "ikili standart siyasəti"ndən savayı ayrı nə adı ola bilər ki?

Ölkə başçısı İlham Əliyev də çıxışında diqqəti elə buna yönəldib ki, "Ermənistanın böyük himayədarları var: biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Budur məsələnin həll olunmamasının səbəbi". Bunun ardınca prezidentin söylədiyi "bağlı qapılar arxasında bizə Dağlıq Qarabağın müstəqilliyini tanımaq üçün təzyiqlər edilir" fikri bir o qədər təəccüb doğurmur. Təbii ki, xristian amilinin təsirini də çıxdaş eləmək olmaz.

Mövcud vəziyyətdə Azərbaycan üçün daxildə milli vəhdəti gücləndirmək, dost-müttəfiq ölkələrlə (Türkiyə, Pakistan, İsrail və s.) əlaqələri daha da dərinləşdirmək və hərbi qüdrəti durmadan artırmaq, habelə dünyada özünün demokratik imicini möhkəmlətməkdən savayı yol qalmır. Güclənməli, yenə də güclənməliyik. Çünki güclü ilə həmişə hesablaşırlar - o cümlədən güclülər və söz sahibləri.



# Pakistan mediası Qarabağdan yazdı

**Pakistanın "Lead Pakistan" qəzetində tanınmış jurnalist Mahmud ul-Həsən Xanın Dağlıq Qarabağ münaqişəsi və Roma Papası Fransiskin Azərbaycana səfəri ilə bağlı məqaləsi yerləşdirilib.**

Məqalədə deyilir ki, Dağlıq Qarabağ MDB məkanında və Qafqaz bölgəsində əsl gərginlik mənbəyidir, bu torpaqların həqiqi sahibi olan azərbaycanlılar öz yurdlarından, evlərindən zorla qovulub (Axar.az).

Məqalədə həmçinin Dağlıq Qarabağ münaqişəsinin tarixi, Xocalı faciəsi haqqında da söhbət açılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016

# "Son 10 ildə çəkilən filmlər "vozdux"dur"

## Xalq artisti Ramiz Əzizbəyli: "Adam satmaqdan başqa əlimdən hər şey gəlir"

**"Yeni Müsavat"ın budəfəki müsahibi Azərbaycanın Xalq artisti, tanınmış rejissor Ramiz Əzizbəylidir. Hər kəsə məlumdur ki, Ramiz Əzizbəyli istedadlı kinorejissor olmaqla yanaşı, kinoda və teatrda sevilən, yadda qalan obrazlar yaratmış aktyor, özünəməxsus gözəl səsi ilə ifalar etməyi bacaran dəyərli sənətkardır.**

Çox təəssüf ki, Xalq artisti uzun müddətdir ki, ağır xəstəliklə mübarizə aparır. Buna baxmayaraq Ramiz Əzizbəyli əvvəlki ampluasını qoruyub saxlaya bilib, yenə də zarafatcıl və pozitivdir. Onunla söhbətimizdə bunun bir daha şahidi olduq:

***- Ramiz bəy, necəsiz, hazırda özünüzü necə hiss edirsiz?***

- İflic vəziyyətdə, yaşayıram hal-hazırda. 3 ildir bu vəziyyətdən çıxa bilmirəm. İndi Allaha qurban olum, Allah yaşadır məni.

***- Amma həmişəki kimi pozitivsiz***

- Hə, mən pozitivəm. Aldığımı almışam, satdığımı satmışam, dolanışığım yaxşıdır, şikayət eləmirəm, prezidentimiz mənə 1000 manat pensiya ayırıb... Çulumu sudan çıxardıram yəni.

***- Çox çətin anlarınız oldu. Həmin vaxtlarda dostlarınızdan vəfasız çıxan oldumu?***

- Heç biri. Gördüyünüz bu süfrə yığışdırılmır, hər gün gəlib-gedənim var. Bugünkü gündə özümə istirahət vermişdim, ona da siz gəldiniz (zarafatla).

***- Dostlarınızın hamısı yaradıcı insanlardır, ya fərqli çevrədən olanlar da var?***

- Fərqlidir. Mənim birinci tamaşaçım dostumdur, yerdə qalan sənət adamlarıdır. Hamısı ilə dostluq edirəm. Şükür Allaha ki, mən nankor, "çörəyi dizi üstə" olanlardan deyiləm, başıma and içirlər.

***- Keçək kinomuzun ən çox sevilən, gözəl nümunələrindən biri olan "Bəxt üzüyü" filminə. Bəzən eşidirik ki, filmdəki ən maraqlı fraqmentlərin əksəriyyəti ekspromt olub, məsələn, Söylünün yerə yıxılması və ya araq şüşəsinin divara çırpılıb qırılması və sairə.***

- Əvvəla, ssenarini mən özüm yazmışam, Vaqif Səmədoğlundan icazə almaqla. Onda mənə dedi ki, "mən kinonun tempini unutmuşam, yaxşısı budur, sən kinoya yaxınsan, özün yaz, özün çək". Belə oldu söhbətimiz. Amma haqqını vermişəm, halallığını almışam, motivlərin əsasında özüm eləmişəm. 15 faiz mənimkidir, qalanı Vaqif Səmədoğlunundur.

***- Olubmu ki, hansısa kadrlar maraqlı olub, amma montaja düşüb?***

- Yox, nə bacarmışam çəkmişəm, hamısı da gedib. Ekspromtlarım da çox olub. Bombadır da (gülür).

***- Amma filmdən sonra Xalq artisti Afaq Başirqızı ilə aranızda nəsə narazılıq yarandı.***

- İncimişəm, küsmüşəm, hələ də danışmıram.

***- Xəstəliyiniz dövründə sizinlə telefon əlaqəsi də saxlamayıb?***

- Yox, qətiyyən əlaqə saxlamayıb, lazım da deyil.

***- Bir ara Fuad Poladov, Rasim Balayevlə də bağlı narazılığınız var idi. Onlarla da münasibət hələ düzəlməyib?***

- Onların ikisindən də razıyam. Amma Afaqdan incimişəm.

***- Rejissoru olduğunuz son filmlərdən biri, Qarabağ müharibəsinə həsr olunmuş "Yalan" nədənsə ekranlarda az göründü.***

### "Mənim iştirakımla 96 film var, onun 30-da oxumuşam"

- Göründü, doyunca göründü. Tamaşaçılar məktub yazıb, haqqına tərifləyirlər məni. Amma yaradıcılıq işləri... indiki hökumətin başı daha çox idmana qarışıb. İdmana fikir verirlər.

***- Həm də nədənsə son dövrlərdə daha çox komediyaların çəkilməsinə üstünlük verilir, nəinki ciddi, cəmiyyəti narahat edən problemlərdən bəhs edən filmlərə.***

- Fikrimcə, hamısı lazımdır. Amma komediya insanların başını daha çox qatır, ciddi film insanları oyadır. İndi bu yolu tutublar da.

***- Bəs axırıncı çəkilən komediya filmlərdən hansılarını izləmisiz, bəyənirsiz?***

- Bəyəndiklərim də var, bəyənmədiklərim də.

***- Məsələn, hansını bəyənirsiz?***

- Axırıncı çəkiləni. Hər kəsin öz yeri var. Son 10 illik çəkilənlər "vozdux"dur, 10 illik yaradıcılığımızı itirmişik. Amma axırıncı filmləri dəyərləndirirəm, indi hansılar gedir, onlar qiymətlidir. Hər biri bir mövzunu qabardır.

***- Maraqlıdır, bəs hansı televiziya proqramlarına baxırsız?***

- İnsult keçirmişəm, əməliyyat olunmuşam, infarktdan qalxmışam və sairə. Hər gün oturub, yatıram. Yatmağa üstünlük verirəm. İynə-dərmanım hələ də bitməyib. Gözüm dolur... belə də (doluxsunur). Mənimki idmandır.

***- Deyəsən gəncliyinizdə idmançı olmusuz axı?***

- Ooo, (fəxrlə) Qılınc döyüşünə getmişəm, futbolla, güləşlə məşğul olmuşam. Mənim canım var ee... (zarafatla özünü öyür). Mən idmançılıqla başlamışam. Şeir də yazıram. Bunu bilmirsiz?

- Yox, bu qabiliyyətinizdən xəbərsizəm.

- (gülür)...

***- Şeirlərinizin mövzusu adətən nədən ibarət olur? Sevgi, yoxsa?***

- Hər şeydən. Mən "boqatı" adamam. Bu yaxınlarda məni Dövlət Arxivinin üzvü seçiblər. Haqqımda monoqrafiya yazılıb, kafedra müdiri işləmişəm, professoram. Bir sözlə, gördüyümü görmüşəm, bir qalır ölmək (gülümsəyir).

***- Kinolarda da sizi adətən şən, komik obrazlarda görmüşük. Bəs ailədə necə, sərt yoxsa zarafatcılsız?***

- Necə görmüsüz, elə o cürəm. İki qızım, bir nəvəm var, bir xanımım, bir də mən. Gəlib-gedən çoxdur. Əmiuşaqları, qardaş-bacılarım... hamısının qadasını alım. Bu süfrə boşalmır, evdən bayıra çıxa bilmirəm. Qonaqlarım bir az öncə, sizdən əvvəl gedib. Hərdən qovalayıram (zarafatla gülür).

***- Bir az öncə övladlarınızdan söz açdınız. Onlardan sizin yaradıcılıq yolunuzu davam edən varmı?***

- Cəhd etdilər. Heç biri... Cəfər Cabbarlı adına kinostudiyamız var, qızım rejissorluğu bitirib, amma hələ işləmir, film çəkmir. Film heç kimə lazım deyil (mənalı gülümsəyir).

***- Niyə film çəkmir, marağı, yoxsa maddi imkanlar yoxdur?***

- Həvəsi var, həvəslidir. Nə qədər dərinə gedir, o qədər də həvəsi artır. Kinostudiyada ilk işidir, ilişib qalıb orda. Amma böyük qızım Təfəkkür Universitetinin hüquq fakültəsini qurtarıb, o da işləmir.

***- Niyə?***

- Körpəsinə baxır da.

***- Rejissor qızınızdan söz düşmüşkən, ümumiyyətlə, gənc rejissorların əksəriyyəti şikayətlənir ki, qocaman rejissorlar, ssenaristlər bizə imkan vermir ki, film çəkək. Deyirlər ki, tutaq ki, dövlət büdcəsindən hər il üç rejissora vəsait ayrılırsa, onların üçü də yaşlı nəslin nümayəndəsi olur, yəni gənclərə imkan verilmir, şərait yaradılmır.***

- Bir damcı o cürdür. Amma çox nahaq şikayət edirlər, mən olsaydım, etməzdim. Mənim dilimin əzbəri qocaman rejissorlardır, cavanlardan heç nə ummuram. İndi-indi dəvət ediblər, təzələr gəlib, rəqabət gedir aralarında.

***- Əslən bakılısız... (cümləmi bitirmədən cavab verir)***

- Bəli, (fəxrlə) "İçərişəhər" balasıyam, bəy nəslindənəm, bəyliyim qoruyub saxlayıram. Xanımım - Zümrüd xanım Gürcüstan əhlidir, bacanağım Ermənistandandır. Milləti, Qafqaz xalqlarını birləşdirmişik (gülür).







***- Əslən bakılı olanlar indi Bakının dəyişən görkəmindən çox ictimai mühitinin, insanlarının dəyişməsindən şikayətlənir.***

- Köhnə Bakını bəyənirəm. İndi həqiqətən Bakının görkəmi dəyişib, o siçan yuvaları, gəmiricilər yox olub. Amma köhnə Bakını bəyənirəm. Mənim uşaqlığım, gəncliyim o illərdən asılıdır.

***-O insanları, yoxsa evləri, tikililəri özləyirsiz?***

- Yox, mən hamısını bəyənirəm. Amma mühitə qalsa, Bakının köhnə mühitini, köhnə "İçərişəhəri" bəyənirəm.

***- Bəs axırıncı dəfə "İçərişəhər"də nə vaxt olmusuz?***

- İndi buraxsalar, bu saat gedərəm (gülür)... 5 il bundan əvvəl. Mən "Sovetski"də doğulmuşam, amma "İçərişəhəri" çox sevirəm.

***-"İçərişəhər" xatirələrinizdən danışa bilərsizmi?***

- Hər şeyi unutmuşam... Son dərəcə müasirləşmişəm, amma burnumun ucu göynəyir "İçərişəhər" üçün. Müasirliyi bəyənirəm, amma... (əlini pəncərəyə tərəf tuşlayaraq) havamızı kəsiblər. Burada oturanda "Günəşli" qəsəbəsinə qədər görürdüm. Bu məqsədlə bu mənzili almışam. Amma di gəl, tikə-tikə gəlirlər.

### "Xanımım Gürcüstan əhlidir, bacanağım Ermənistandan, milləti, Qafqaz xalqlarını birləşdirmişik"

***- Bir az öncə idmançı olmağınızdan, yaradıcılığınızdan bəhs etdiniz. Daha hansı bacarıqlarınız var?***

- Müğənniyəm.

***- Bəli, bir çox filmlərinizdə gözəl, ürəyə yatımlı maraqlı ifalar etmisiniz.***

- Mənim iştirakımla 96 film var, onun 30-da oxumuşam.

***-Bəs ifaçılıq həvəsiniz hardan qaynaqlanır?***

- Atam da xanəndə olub, bəy balasıdır, "İçərişəhər"li olub. Avazı gəlib oxuyub. Mərhum Rafiq qardaşımı da xanəndə etmişdi. Amma o diş həkimliyinin dalınca gedib, buna baxmayaraq ifalar da edib. Qardaşım oğlu Nurlan Əzizbəyli ifa edir, mən ifa edirəm, səsim var. Bacım oğlu da ifaçı olub, yəni nəsildən gəlib.

***- Daha çox hansı mahnılar sinənizə yatıb?***

- Fərq qoymamışam. Bütün Azərbaycan mənimdir, aşıq havalarından tutmuş, lirik mahnılara qədər sevmişəm. Yəni ayrı-seçkilik etməmişəm.

***- Demədiz, nəyi xoşlayırsız, nə sizi incidir?***

- Yatmağı xoşlayıram. Bu vaxta qədər çəkilişlərdə olmuşam, istirahət etməmişəm, indi yatıram. İşsizlikdir də...

***- İş üçün darıxırsız yəni.***

- Hə, darıxıram... Amma şikayət eləmirəm haa (zarafatla). Qeyri-münasiblik darıxdırır məni. İnsanlar yaşayıb öləcəklər, buna görə insan kimi yaşasınlar. Hamını xoşbəxt görüm, içi sən qarışıq.

Söhbət zamanı gözümə divarda, pianinonun üstündəki müsahibimin portretlərinə sataşır. Hiss olunur ki, xalq artisti öz portretlərini çox sevir.

***"- Portretlərinizi kim çəkib?***

- Mənim portretlərim çoxdur. Bir gün Şamaxıdakı evimə qonaq gəlsəniz onları sizə göstərərəm (Divara vurulmuş portretini göstərərək). Bu, 65 illiyimə həsr olunmuş yubileydə verilib. O birisi isə (pianinonun üstünə qoyulmuş portreti nəzərdə tutur) "Priverdinin xoruzu" filmi təqdim olunan zaman, debütdə təqdim edilib.

***- Deyəsən portret çəkdirməyi çox sevirsiniz?***

- Mən rəssamam axı. Rəsmlə də məşğul olmuşam.

Söhbət boyu yanımızda əyləşib, kəlmə belə kəsməyən Xalq artistinin həyat yoldaşı Zümrüd xanım ancaq bu məqamda söhbətimizə qarışır:

Zümrüd xanım:

- O, hər şeyi bacarır.

Ramiz Əzizbəyli:

- Hər şey gəlir əlimdən. Bir adam satmıram! Adam satmaqdan, xəyanətdən başqa əlimdən hər şey gəlir. Özümdən razıyam, çünki narazıyam (məşhur kəlamı sitat gətirib gülür).

***- Bəzən deyirlər ki, yaradıcı insanlar daha həssas, emosional olduğundan onların əksəriyyəti xəyanətdən, satqınlıqdan kənardır.***

- Əksinə. Əksəriyyəti paxıl olur. Amma mən paxıl deyiləm.

***- Söhbət zamanı fəlsəfi düşüncələriniz çox oldu***

- Mən filosofam, Təfəkkür Universitetini, Mədəniyyət və İncəsənət Universitetini bitirmişəm.

Zümrüd xanım:

- Universitetimizdə bizə dərs deyib.

***- Deməli ilk öncə müəlliminiz olub?***

Zümrüd xanım:

- Müəllimim olmasa da, müəllimliyi əvəz edib

Ramiz Əzizbəyli:

- Məndən yoxdur ki, vallah, yoxdur (zarafatla gülür).

❑ **Xalidə GƏRAY**
❑ **Məğrur MƏRD**

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016

# 4 təkərli "qəbiristanlıq": ölümə aparan sovet avtomobilləri niyə yığışdırılmır?

## Ekspert: "Bu məsələ geniş təbliğ olunarsa, insanlar özləri də köhnə avtomobildən uzaqlaşarlar..."

**Statistikaya görə, Azərbaycanda avtomobil qəzalarının bir çoxu ölüm və ya ciddi zədə ilə nəticələnir. Rəqəmlə götürdükdə Azərbaycanda avtomobil qəzalarının 40 faizinin ölümlə nəticələndiyi bildirilir. Halbuki, bu rəqəm Gürcüstanda 9 faiz, Avropa ölkələrində isə daha aşağıdır.**




Ekspertlərə görə, ölkəmizdə avtomobil qəzalarının ölümlə nəticələnməsinin müxtəlif səbəbləri var, onlardan ən başlıcası isə köhnə avtomobillər, daha dəqiqi, sovet dövrünün istehsalı olan maşınlardır. Eyni zamanda "avtoş"lar da sovet avtomobillərinə üstünlük verirlər ki, bu da qəzaların sayının artmasına vəsilədir.

Bir məqam da var ki, Azərbaycanda 2014-cü il aprelin 1-dən avtomobillər üçün "Avro-3"-ə keçmədən "Avro-4" ekoloji standartı (zərərli maddələrin atılması üzrə) tətbiq edildi. Lakin bu qərar belə, bəhs etdiyimiz məsələyə əsaslı təsir etmədi. Ekspert Ərşad Hüseynov bildirdi ki, "Avro-4" standartlarının tətbiqi ancaq idxala aiddir: "Lakin Azərbaycanda bu tarixdən əvvəl gətirilən avtomobillərə heç bir məhdudiyyət mövcud deyil. Avtomobilləri texniki baxışdan keçirib, sürürlər. Hansı standartın olub, olmamasına diqqət edilmir. Hətta 2014-cü ildən sonra da Azərbaycana gətirilən avtomobillərin eləsi var ki, təhlükəsizlik səviyyəsi o qədər də qənaətbəxş deyil. Ümumiyyətlə, təhlükəsizlik səviyyəsi müxtəlif cür qəbul edilir. Ümumi yanaşma belədir ki, avtomobilin konstruksiyası, içəridəkilərin sağlamlığını nə dərəcədə qoruya bilər. Bu isə Avropanın müasir avtomobillərində daha yüksəkdir. Eyni zamanda həmin avtomobillərin qiyməti də bahadır. Rusiya avtomobillərində isə heç indi də təhlükəsizliyə bir o qədər də fikir vermirlər. Hindistanda, Türkiyə də həmçinin təhlükəsizlik məsələsinə çox önəm vermirlər. Bu nüans Avropanın bəzi avtomobil modellərinə də aiddir. Misal üçün, "Opel"lə "BMW"nin təhlükəsizliyi eyni deyil".

Ekspertə görə, köhnə maşınlara qarşı utilizasiya proqramları olur: "Belə ki, bu avtomobilləri inzibatçılıq yolu ilə yığışdırırlar. Bunu bizim ölkədə qəbul etmədilər. Hələ ki heç olmasa, texniki baxış tam obyektiv formada aparılsa, adamlar bilərlər ki, istifadə etdikləri avtomobilləri yararsızdır və hər an onların həyatları üçün ciddi təhlükəyə səbəb ola bilər. Bu məsələ geniş təbliğ olunarsa, insanlar özləri də köhnə avtomobildən uzaqlaşarlar".

Mövzu ilə bağlı Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədovun da fikirlərini aldıq. V. Əsədov bildirdi ki, sovet maşınlarında təhlükəsizlik baxımından bəzi məsələlərin yerində deyil: "Bunu sürücü kimi söyləyə bilərəm. Adicə bu avtomobillərdə hava yastığının olmaması, tormozlama sisteminin müasir avtomobillərdən geri qalması nə isə ifadə edir. Bütün bunlar istər-istəməz ekstremal şəraitdə özünü büruzə verir. 2014-cü ilin aprelin 1-dən etibarən Azərbaycana köhnə avtomobillər gəlmir. Doğrudur, Rusiya istehsalı olan avtomobillər gətirilir, ancaq bu, müasir avtomobillərdir və onlarda təhlükəsizlik məsələləri nəzərə alınıb".

Onu da qeyd edək ki, "Avro-4" standartlarına görə Azərbaycana gətirilən avtomobillər Avrozonaya daxil olan ölkələr üçün 2005, ABŞ üçün 2004, Cənubi Koreya üçün 2006, Yaponiya üçün 2011, Türkiyə üçün isə 2008-ci il istehsalı olmalıdır. Və bu avtomobillərin təhlükəsizlik sistemi bütün beynəlxalq standartlara cavab verməlidir.

❑ Əli RAİS

# Sağ ikən "öldürülən" məşhurlar...

**Məşhur sənətkarların, aktyor və ya aktrisaların yalan olaraq ölüm xəbərinin yayılması artıq adi hal alıb. Tez-tez bəzi yerli mətbuat orqanlarında hansısa məşhurun "öldüyünü", daha sonra isə "dirildiyinin" şahidi oluruq. Onlardan bir neçəsini təqdim edirik:**








Bu günlərdə sağ ikən ölüm xəbəri yayılan sənətkarlar sırasına Əməkdar artist, sevimli aktrisamız Kübra Əliyevanın da adı daxil oldu. Hər zaman olduğu kimi, sənətçini "öldürən" yenə də mətbuat oldu. Belə ki, saytların birində aktrisanın ölüm xəbəri yayılmışdı. Prodüser Tarix Əliyev (Tolik) isə həmin xəbəri şəxsi "İnstagram" səhifəsində paylaşaraq öz təəssüfünü bildirmişdi. Prodüserin bu paylaşımı bir neçə sənət adamlarını da çaş-baş salmışdı. Lakin az bir zamanda xəbərin yalan olduğu ortaya çıxmışdı. Aktrisa "Narahat olmayın, mən sağ-salamatam, kim, niyə bu xəbəri yayıb, bilmirəm" deyib barəsində yayılan yalan xəbərə öz etirazını bildirmişdi.

Ölüm xəbəri yayılan daha bir məşhur, əməkdar artist Məcnun Hacıbəyovdur. Belə ki, bir neçə ay bundan əvvəl 81 yaşlı aktyorun öldüyü bildirilmişdi. Aktyor bununla bağlı jurnalistlərin sualına cavab olaraq demişdi ki, barəsində yayılan ölüm xəbərini oğlundan eşidib. "Mən adi aktyoram, öləndə nə olar?" deyə tanınmış aktyor təvazökarlıq etmişdi. Qeyd edək ki, bir çox məşhur kino və tele-tamaşalarda maraqlı obrazlar yaradan Məcnun Hacıbəyov uzun müddətdir ki, Quba rayonunun İkinci Nügədi kəndində yaşayır. Bir neçə gün bundan öncə aktyor 81 yaşını qeyd edib.

"Məni 5 dəfə "öldürüb", 5 dəfə də dirildiblər". Bu sözləri isə xalq artisti Arif Quliyev barəsində yayılan ölüm xəbərlərinə münasibət bildirərkən deyib. Əslində aktyor haqlıdır, çünki dəfələrlə onun barəsində ölüm xəbəri yayılıb, sonradan isə həmin xəbərlər təkzib edilib.

Ötən il daha bir sənətkarın - Xalq artisti, muğam ustası Ağaxan Abdullayevin də ölüm xəbəri yayılmışdı. İnternet saytlarının birinin yaydığı məlumata görə, xanəndə xərçəng xəstəliyindən dünyasını dəyişib. Xalq artisti barəsində yayılan xəbərə hiddətlənmişdi: "İnsanların hissləri ilə oynamaq düzgün deyil. Allah belə insanların cəzasını versin. Diri adamı öldürürlər. Bunu cılız insanlar edib. Ağıllı, ziyalı adamlar belə iş görməz".

Azərbaycanın Əməkdar artisti, tanınmış teleaparıcı, MGP (M Group Production) şirkətinin prezidenti Murad Dadaşovun ölüm xəbəri isə sosial şəbəkələrdə yayılmışdı. Hansı səbəbdən bu cür məlumatın yayılması bəlli olmasa da, Murad Dadaşov elə sosial şəbəkədən buna münasibət bildirmişdi: "Ölüm xəbərini yazanların ailəsi ilə bahəm, Allah cəzalarını versin".

Tanınmış müğənni, Əməkdar artist Baloğlan Əşrəfov da bir dəfə "öldürülüb", "dirilib". Xəbər saytlarından biri onun ölüm xəbərini yaysa da, üstündən bir az keçmiş məlumatı təkzib etmişdi. Müğənni onun barəsində yalan xəbəri yazanlara lənət yağdırmışdı: "Belə olmaz axı! Başı batsın o xəbəri yazanın. Bu insan kimdirsə düşmənçiliklə yayır bu xəbəri. Təxribatdır mənə qarşı. Başqa nə ola bilər ki? Mənim əzizlərim, doğmalarım eşidib narahat olurlar".

❑ Xalidə GƏRAY
❑ Musavat.com

# Məhərrəmlikdə restoran biznesində durğunluq hökm sürür

## Şadlıq evlərinin bəzilərində mərasimlər dayanmayıb; əksəriyyət isə öz fəaliyyətini situasiyaya uyğunlaşdırır

**Müsəlman ölkələrində matəm ayı sayılan Məhərrəm ayının başlaması Azərbaycanda da toy mərasimlərinin, şənliklərin dayanmasına səbəb olub. Toyların təxirə düşməsi isə restoran biznesinə, kirayə gəlinlik, kirayə gəlin maşınları bazarı, gözəllik salonları və qızıl bazarı sferalarına ciddi təsir göstərir.**



Bəziləri, bu maddi itkinin qarşısını almaq üçün restoranını mərasim evinə uyğunlaşdıraraq yas mərasimlərinin keçirilməsi üçün təklif edir. Bu yolla həm restoran işçiləri işsiz qalmamış olur, həm də sahibkar zərərin bir hissəsini bağlamış olur. Hazırda Məhərrəm ayını yaşadığımızı nəzərə alaraq, restoran biznesindəki durumu, şadlıq evlərinin sahiblərinin qarşıdakı iki ay üçün planlarını öyrənməyə çalışdıq.

"Ay işığı" şadlıq evinin adminstratoru bildirdi ki, bu iki aylıq müddətdən istifadə edərək restoranda təmir işləri aparırlar: "Toylar tam dayanmayıb. Qeyri-müsəlmanlar toy edir, ruslar, yəhudilər toylarını saxlamırlar. Çünki məhərrəmlik ancaq müsəlmanlara aiddir. Ancaq ümumilikdə ilin elə ayları var ki, toy zəif olur. Məsələn, soyuq aylarda insanlar toy etmir. May ayını nəhs ay hesab edirlər. Ramazan və Məhərrəm aylarında da toy olmur. Daha çox sentyabr-noyabr arası və aprel-iyul arasında insanlar toy edirlər. Biz indiki fasilədən istifadə edib restoranımızı əsaslı təmirə bağlamışıq".

"Həyat yolu" şadlıq sarayından suallarımızı cavablandıran adminstrator isə bildirdi ki, son iki ay üçün bir dənə də sifariş yoxdur: "Hazırda ancaq dekabr və sonrakı aylar üçün sifarişlər götürürük. Əlimizdən nə gəlir ki, oturub toyların başlamasını gözləyəcəyik. Restoranımızı mərasim zalı kimi istifadə etmək niyyətimiz də yoxdur".

"Monte Karlo" şadlıq sarayının adminstratoru isə maddi ziyanlarının çox olacağını etiraf edir: "Müsəlmanların toyları tam şəkildə dayanıb. Müsəlman olmayanlar da onlara hörmət olaraq toy etmir, çünki ən azından müsəlmanları qonaq çağırmalıdır. Hazırda sektor demək olar ki, donub. Yalnız dekabrdan sonrakı aylar üçün sifariş götürürük. Borc-xərclə vəziyyətdən çıxmağa çalışırıq. Restoranımız həddindən artıq dəbdəbəli olduğu üçün mərasim zalı kimi istifadə etməyə uyğun deyil. Əslində elə bir niyyətimiz də yoxdur".

Toy biznesindəki durumu dəyərləndirən iqtisadçı ekspert Rəşad Həsənov da bildirdi ki, toyların dayanması, şadlıq saraylarının müəyyən aylarda tam fəaliyyətsizliyinə gətirib çıxarır və bu da həmin sektorda fəaliyyət göstərən işçilərin müvəqqəti olaraq öz hesabına məzuniyyətə buraxılmasına səbəb olur: "Son nəticədə o işçilərin gəlirləri azalır, mövsümi işsizlik yaranır. Digər tərəfdən, sahibkarların özlərinin gəliri azalır ki, bu son nəticədə dövlət büdcəsinə vergi ödənişlərinin həcminə müəyyən təsir göstərir. Həmçinin şadlıq saraylarının sifarişləri əsasında fəaliyyət göstərən istehsal sahələrinin fəaliyyətini də ləngidir. Sifarişlərin olmaması dövriyyənin aşağı düşməsinə gətirib çıxarır. Məhərrəmlik aylarında toyların olmaması bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərini də gəlirlərdən məhrum edir və fəaliyyətlərini bu duruma uyğunlaşdırmağa vadar edir. Çünki bu daim müşahidə olunan bir haldır və baxımdan toy sektoru ilə əlaqəli olan sahibkarlıq subyektləri öz fəaliyyətlərini yaranmış situasiyaya uyğunlaşdırırlar. Gəlirlərin aylar üzrə bölgüsü, xərclərin ona uyğunlaşdırılması istiqamətində əvvəlcədən hazırlıqlı olurlar".

Ekspert onu da qeyd etdi ki, toyların dayanması ilə bağlı qızıl-zinət əşyaları bazarında da ciddi durğunluq yaşanır: "Çünki zinət əşyalarının istehlakı məhz toylarla bağlıdır. Bu baxımdan toyların dayanması bazara da öz mənfi təsirlərini göstərir, gəlir dövriyyəsinin azalmasına gətirib çıxarır. Həmçinin geyimlərin, avtomobillərin icarəyə verilməsi sahəsində də qeyd etdiyimiz səbəblərdən gəlirlər azalır".

❑ NƏRGİZ

# Azərbaycan millisinin tarixi qələbəsi ümidləri artırdı

## Ölkəmiz C qrupunda Almaniya ilə liderliyi bölüşür; İqbal Ağazadə "tez sevinməyək" deyir

**Futbol üzrə Azərbaycan milli komandası oktyabrın 8-də tarix yazdı. Millimiz 2018-ci ildə Rusiyada keçiriləcək dünya çempionatının qrup oyunları çərçivəsində Norveçi minimal hesabla məğlub etdi.**

Qələbənin ardından milli komandamız C qrupunda Çexiya, Şimali İrlandiya və Norveç kimi güclü ölkələri qabaqlayaraq, aktivində 6 xalı olan Almaniya millisi ilə ilk sıralarda qərarlaşdı. Yalnız vurulan topların fərqində Almaniya Azərbaycanı qabaqlayır. Qazanılan tarixi qələbədən təkcə Azərbaycan deyil, bütün dünya danışır. Çünki oyundan öncə əksəriyyət ilk turda məğlub olan Norveçin bu oyunda xal itirməyəcəyini, ilk turda San-Marinonu məğlub edən ölkəmizin bu uğurun davamını gətirməyəcəyini düşünürdü. Norveç millisinin baş məşqçisi və futbolçuları Bakıya qələbə üçün gəldiklərini və bu nəticəni qazanmağın onlar üçün çətin olmayacağını deyirdilər. Hətta qrupda Azərbaycan və San-Marino yığmalarını zəif adlandıraraq, bu ölkələrin hər birindən 6 xal alacaqlarını əminliklə söyləyirdilər. Amma "sən saydığını say, gör fələk nə sayır"...

Millimizin uğurundan sonra ümidlər artıb. Qrupda Almaniya yığması ilə heç bir ölkənin rəqabət apara bilməyəcəyi, buna görə də Azərbaycanın Çexiya və Şimali İrlandiya ilə ikincilik uğrunda mübarizə apara biləcək gücdə olması ilə bağlı fikirlər var. Norveç qalibiyyəti oktyabrın 11-də Çexiya ilə səfər oyunumuzun əhəmiyyətini qat-qat artırıb.

Komanda.az saytının redaktoru Natiq Muxtarlı hesab edir ki, Azərbaycanın ən böyük tarixi uğuru DÇ-2018-ə vəsiqə qazanmaqdır: "Ümid həmişə olub. Futbolun nəticəsi əvvəl-axır gəlməlidir. Məsələn, qapıçımız Kamran Ağayevin Portuqaliya klubunda oynaması onun özünə inamının nə qədər yüksək olduğunu Norveçlə oyunda ortaya qoydu. Üstəlik, meydanda olan Azərbaycan millisinin əksəriyyəti "Qarabağ" və "Qəbələ" klublarının futbolçuları idi. Onlar da Avropa Liqasında zəngin təcrübə qazanmış oyunçulardır. Deməli, təcrübə öz sözünü deyir. Klub futbolunun inkişafı da mütləq mənada milli komandaya ciddi təsir edir. Azərbaycan yığmasının bizə hansı ümidləri verəcəyi, sevinc bəxş edəcəyi Çexiya ilə oyundan sonra məlum olacaq. Almaniya qrupun favoritidir, onlarla rəqabət apara bilmərik. Norveçlə oyun göstərdi ki, biz onlardan xal ala bilərik, çünki yaxşı dövrlərini keçirmirlər. San-Marino isə Azərbaycanın dişinə görə komandadır. Bundan sonra əsas rəqibimiz Çexiyadır. Norveçlə oyunun 90 dəqiqəsində müəyyən çatışmazlıqlar hiss olunurdu. Topu özümüzdə saxlaya bilmirdik. Qoldan sonra üstünlüyü tamamilə Norveçin tərəfinə vermişdik. Hücum xəttində ciddi problemlərimiz var. Son anda qol vuracaq hücumçuya ciddi ehtiyacımız var. Çexiya ilə oyuna qədər bu çətinlikləri müəyyən qədər aradan qaldırmaq olar. Çexiya ilə oyunda da bəzi çatışmazlıqlarımız üzə çıxacaq. Çünki Çexiya Norveçdən güclüdür. Bütün bunlara baxmayaraq, gələcəyə inam var. Futbolçular öz üzərlərində işləməli, görməlidirlər ki, heç kəsdən zəif deyillər. Bilməlidirlər ki, belə oyunlardan sonra onların Avropaya yolları açıla bilər. Gələcəkdə Avropa və Dünya Çempionatlarında yalnız bu yollarla iştirak etmək olar".







Futbolla yaxından maraqlanan Ümid Partiyasının sədri İqbal Ağazadə bundan sonrakı oyunlarda Azərbaycan millisinin 4 xal qazanacağını düşünür: "Azərbaycan ən yaxşı halda 10 xal qazana bilər ki, bu da 3-4-cü yerlər üçün kifayət edər. Bəxti gətirib, bəlkə də bir az artıq xal toplaya bilər. Şimali İrlandiya ilə fərqli oynaya bilər. Güman etmirəm ki, Çexiya ilə fərqli oynasın. Çünki Çexiya kifayət qədər xal itirib. İlk oyunda Şimali İrlandiya ilə heç-heçə edib, Almaniyaya isə biabırçı məğlub oldu. Şimali İrlandiyanın 4 xalı var və iddiaçıların sırasındadır. Norveç, San-Marino və Azərbaycan qrupda qonşu pillələrdə qərarlaşa bilərlər. Azərbaycanın şansı var ki, yaxşı oynasa, 3-4-cü yerləri tutsun. Amma hər halda irəliləyişdir. Dünyanın aparıcı futbol məktəbləri var. Bu məktəblərə xərc çəkib, kiçik yaşlarından uşaqları göndərmək lazımdır. Nəticədə ortaya güclü futbolçu çıxa bilər. Qələbə münasibətilə millimizi və xalqımızı təbrik edirəm. Yaxşı göstəricidir. Bir az bəxtimiz gətirdi, bir az da bəxt üzümüzə güldü. Deyə bilmərəm ki, bu, Azərbaycan millisinin göstəricisidir. Futbol həm də bəxtdir. Görək sonda nəticə necə olacaq. Heç kəs ümidlənməsin ki, bu, qrupdan çıxmadır. Gələcək nəticələrdən çox şey asılıdır".

❑ **Cavanşir ABBASLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Təbib Darya xanım**

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**



## Toya hazırlaşan hərbçi avtoqəzada öldü

**Qəbələ rayonunda piyadanın vurulması ilə nəticələnən avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə ötən gecə Qəbələ rayonunun Zarağan kəndi ərazisində qeydə alınıb.**

Qəbələ rayon sakini 1995-ci il təvəllüdlü Süleymanov Səbuhi Səxavət oğlu idarə etdiyi 36-BB-211 dövlət nömrə nişanlı "VAZ 21011" markalı minik avtomobili ilə hərəkətdə olarkən yolu keçən piyadanı, Göyçay rayonu Bığır kənd sakini, 1995-ci il təvəllüdlü Xəlilov Elşən Şəfəq oğlunu vurub.

Aldığı ağır xəsarətlər səbəbindən hadisə yerində dünyasını dəyişən Elşən Xəlilov Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Qəbələ rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsinin müddətdən artıq xidmət edən hərbi qulluqçusu (MAXE) olub. O, hərbi hissədən işdən çıxıb evə gedərkən avtomobil qəzasına tuş gəlib. Məlumata görə özünün toy mərasiminə hazırlaşan Elşən Xəlilov ötən həftə ailə quracağı qızla nişanlanıb.

Hadisəni törədən sürücü saxlanılaraq istintaqa təhvil verilib. Faktla bağlı Qəbələ Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

YENİ MÜSAVAT
N 223 (6544) 10 oktyabr 2016

**Həftə sonu bütün dünyada insanların istirahətə, kino və əyləncəyə vaxt ayırdığı gündür. Bu, Azərbaycanda da belədir. Amma bizdə hər şey lüks sayılır. Sıradan bir əyləncə - kinoteatr, bir nahar yeməyi, bir qədər gəzinti aylıq məvacibimizin əhəmiyyətli hissəsini təşkil edir. Bu səbəbdən də belə bir əyləncəni ailələr ayda ancaq bir dəfə həyata keçirə bilirlər.**

# Bakı kinoteatrlarında film səfası niyə lüks sayılır?

## Biletlər və xidmət baha olduğundan insanlar pirat disklərə üstünlük verir...



**Filmlərə yaş senzi qoyulur, amma...**

90-larda şəhərdəki kinoteatrlar həm az idi, həm də təyinatı fərqli idi. O baxımdan da insanlar ancaq kirayə kasetlərə üstünlük verir, bir-iki günlüyünə disk, kaset kirayə götürüb, evdə baxmağı tərcih edirdilər. İndi isə seçim bir qədər artıqdır. Şəhərdə sayı gündən-günə artan AVM-lər - alış-veriş mərkəzlərində kinoteatrlar da fəaliyyət göstərir. Amma burda kinoya baxmaq bir ailənin büdcəsi üçün ciddi məbləğ sayılır.

“Metro Park”da gördüklərimizə keçək. Afişada əsasən Hollivud və Türkiyə istehsalı olan filmlər, eləcə də yerli istehsal olan bəzi filmlərin elanları yer alır. Üzərində yaş senzi göstərilsə də, onun hansı normalarla müəyyənləşməsi bir başqa müzakirənin mövzusudur. Şəxsən mən “Miss Pereqninin qəribə uşaqlar evi” adlı filmin +12 yaş senzi ilə yazıldığına şahid olsam da, qorxu filmi sayılan bu film heç də həmin yaş üçün xarakterik deyildi. Eləcə də “Müthiş bir film” adlı komediya üçün də yaş senzi +12 göstərilib, amma baxanlar bilir ki, ordakı bəzi zarafatlar və dialoqlar heç də 13 yaşlı yeniyetmələr üçün uyğun deyil. Anlamaq olmur ki, bu senzi müəyyən edənlər azərbaycanlı uşaqların hansı psixologiya və yetişmə tərzində olduğunu düşünürlər.

**Pop-korn bilet qiymətinə satılırsa...**

Kinoteatra ciddi axın olduğunu demək olmazdı. Daha çox “utancaq” cütlüklər, eləcə də tələbə qızlardan ibarət qruplar gözə dəyirdi. Sayın azlığına təsir göstərən isə heç şübhəsiz ki, qiymətlərin bahalığı idi.

Məsələn, yuxarıda adını çəkdiyimiz filmə biletin qiyməti 6.50 AZN idi. Ən maraqlısı isə biletin üzərində üç dildə yazının olması idi: Azərbaycan, türkcə və rus dilində. Anormallıqlardan biri bu olsa da, illərdir bunu dəyişmək istəyən yoxdur.

Amma “kino keyfi” üçün bilet almaq yetərli deyil. Bunun pop-kornu, suyu, meyvə şirəsi... var. Qiymətlərə diqqət:

Duzlu və ya şirin pop-korn - 2 - 5AZN

İce Coffee və cappuccino (eləcə də espresso) - 3 AZN

Meyvə kokteyli - 3AZN

Plastik qabda 0.5 litrlik su, fanta, kola- 1 AZN

Seed Drink - 3AZN

Dəmir qabda Fanta, Cola və pepsi - 2 AZN

Qiymətləri müqayisə etmək üçün digər kinoteatrlara da baş çəkdik. “28 Mall”-da yerləşən “28 cinema”da biletlər ancaq səhər saatlarında çatımlı olur. Bəzi filmlərin 10.45 seansı üçün bilet qiyməti 3 AZN, 19.10 seansında isə 7 AZN-dir.

“Park Cinema”da da qiymətlər bir qədər fərqlidir. Həftə sonları, qeyri-iş günlərində böyük tarifi ilə bilet qiyməti 7.80 AZN-dir. Uşaq tarifi 6.20 AZN-dir. Yeni ailə 3 tarifi ilə qiymətlər 18.60 AZN, yeni ailə 4 tarifi iləsə 24.80 AZN-dir.

Bu qiymətlərə baxmaqla siz 3 nəfərlik bir azərbaycanlı ailəsi üçün bir günlük “kino keyfi”nin necə lüksə çevrildiyini hesablaya bilərsiz. Su, pop-korn, bilet, parkinq pulunu üst-üstə gələndə azərbaycanlı ailənin bir kinoya baxmaq üçün minimum 40-45 AZN arasında xərc çəkməli aydındır. Bu məsrəfi heç də bütün azərbaycanlı ailəsi qarşılaya bilmir və pirat disk alanların, kino saytlarının yardımından istifadə edənlərin sayı da bu səbəbdən ildən-ilə artır.

Ailə büdcəsini ciddi şəkildə tənzimləyənlər üçün 7 AZN ciddi məbləğdir və hətta bunu az qala 1 kilo mal ətinin qiyməti ilə müqayisə etmək mümkündür. O halda bunun adı lüks deyil, nədir?

Qonşu Türkiyədə bilet qiymətləri ilə bağlı araşdırma aparılıb. “Takvim” qəzetinin mədəniyyət şöbəsinin araşdırmasına görə, qonşularımızda biletlərin orta qiyməti bizim pula çevirəndə 3.50 AZN-dir. Türkiyə ərazisində ümumən 2 min 58 kinoteatr fəaliyyət göstərir. Təbii ki, ortada stabil bilet qiymətindən söhbət gedə bilməz. Çünki kinoteatrın komfortu, texniki üstünlükləri, yerləşdiyi ərazi də qiymətə təsir göstərir. Amma İstanbulda yerli valyuta ilə 2.50 AZN-ə də bilet satılan kinoteatr tapmaq mümkündür. İstanbulun ən lüks səmtində, ən bahalı kinoteatrlarda isə qiymət 5 AZN-i ötmür.

Və məhz bunun səbəbidir ki, azərbaycanlılar yeni filmlərə ən yaxşı halda internet, ən pis halda isə disk vasitəsilə baxırlar. Təbii ki, seçim sonuncunun xeyrinə olanda nəsibimiz pirat disklər olur. Piratçılıq üzündən bütün dünya musiqi bazarı hər il təxminən 4 milyard avro itirməkdədir. Bu rəqəm Yaponiya və ABŞ xaricindəki bütün ölkələrin hər birinin qanuni kaset satışlarından daha artıqdır. Bu gəlirin böyük bir qismi kriminal qruplaşmalarının maliyyələşməsinə sərf olunur. Pirat satışları son dönəmdə Yer kürəsində böyük bir artımla iki qata qədər artıb. Məsələn, adi müqayisə - 2010-cu ildə bu rəqəm 510 milyon idisə, 2012-ci ildə 1.7 milyarda qədər artıb. CD-lərlə yanaşı, kasetlərin də saxta satışının geniş yayıldığını nəzərə alanda, pirat məhsullar bütün musiqi satışlarının 40 faizini təşkil edir.

Məsələn, bir ay öncə Latın Amerikasında həyata keçirilən bir əməliyyat nəticəsində 235 CD, 1 milyon ədəd CD-R və 500 min ədəd üzü yazılmış CD ələ keçirilib. Bu təsisin illik istehsal potensialı 14 milyon CD-R-dir. Araşdırmalar zamanı məlum olub ki, bu qara bazardan əldə edilən gəlir narkotik qaçaqmalçılığı və insan alveri kimi bizneslərə yönəldilir.

**Bazarda pirat disk məhsullarının faizi 70-80 faizdir**

Hazırda Azərbaycanda CD-DVD bazarında 75-78 faiz, kitab bazarında 45-50 faiz, kompüter proqramları bazarında 88-89 faiz pirat məhsullar var. Bu, Müəllif Hüquqları Agentliyinin açıqladığı rəsmi statistikada öz əksini tapıb. Məlumatlara görə, son zamanlar görülmüş tədbirlər nəticəsində piratçılığın səviyyəsi 2 faiz aşağı düşüb. Amma bu rəqəm arta da bilər. Xüsusi nəzarət holoqramları tətbiq olunduqdan, “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” qanun qəbul edildikdən, Əqli Mülkiyyət Mərkəzi yaradıldıqdan sonra təbii ki. Məlumatlara inansaq, bu halda piratçılığın səviyyəsini 15 faiz aşağı salmaq mümkün olacaq.

Müəllif Hüquqları Agentliyi tərəfindən “Əqli mülkiyyət hüququnun təminatı və piratçılığa qarşı mübarizə haqqında” yeni qanun layihəsi hazırlanıb. Bu barədə məlumat verən agentliyin şöbə müdiri Natiq İsayevin sözlərinə görə, sənədin yaxın günlərdə parlamentə təqdim edilməsi nəzərdə tutulur: “Belə bir qanunun hazırlanması əqli mülkiyyətin qorunması və təminatı məqsədi daşıyır. Layihədə nəzərdə tutulur ki, əqli mülkiyyət obyektləri üzərinə müvafiq nəzarət markaları yapışdırılsın. Bununla bazarda olan məhsulların hansısının pirat, hansının isə qanuni olması müəyyən ediləcək. Beləliklə bazarda pirat məhsulların yığışdırılmasına nail olunacaq”. Şöbə müdirinin bildirdiyinə görə, agentlik tərəfindən eyni zamanda “Əqli mülkiyyətin İnkişafına dair Dövlət Proqramı” da hazırlanır.

Azərbaycanda istifadə olunan proqram təminatının 90%-i piratdır. Bunu isə jurnalistlərə açıqlamasında USAİD-in Qafqaz üzrə regional direktoru Cek Konli bəyan edib. Onun sözlərinə görə, Azərbaycan pirat məhsulların istifadəsinə görə dünyada 6-cı yeri tutur: “Proqram təminatı sahəsində pirat məhsulların istifadəsi informasiya təhlükəsizliyinin zəifləməsinə gətirib çıxarır. Əgər ofis və banklar lisenziyalaşdırılmış məhsuldan deyil, pirat proqramdan istifadə edirlərsə, bu kompüterlərə haker hücumu təşkil etmək daha asan olur”.

C.Konli ümidvar olduğunu bildirib ki, USAİD-lə “Microsoft-Azerbaijan” və “Softline” şirkətləri arasında imzalanan pirat proqram təminatı ilə mübarizəyə dair bugünkü memorandum Azərbaycanda informasiya təhlükəsizliyinin inkişafına və İT sektorunun artımına səbəb olacaq.

**Kim necə cəzalandırılır?**

Bəs qanunlar nə deyir? Əqli mülkiyyət hüququnu qorumaq üçün bizdə qurumlar və qanunlar necə işləyir? Bu sahə üzrə iki dövlət qurumu var. Biri Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, digəri isə Müəllif Hüquqları Agentliyi. Əqli mülkiyyət hüquqları özü çox müxtəlif və geniş anlayışdır. Bu siyahıya elm, ədəbiyyat, incəsənət nümunələri, elektron proqram təminatı, ifalar, televiziya və radio verilişləri, kinolar, ixtiralar, sənaye mülkiyyəti formaları və s. aid etmək olar. Azərbaycanda əqli mülkiyyətin “sənaye formaları”nı Patent Agentliyi qoruyur, humanitar deyə biləcəyimiz qalan müəlliflik hüquqlarını isə Müəllif Hüquqları Agentliyi.

Bu hüquqların qorunması üçün yetərincə qanunlar da var. “Patent haqqında”, “Əmtəə nişanları haqqında”, “Müəlliflik və əlaqəli hüquqlar haqqında” qanunlar da daxil olmaqla 20-yə yaxın hüquqi-normativ sənədlər var. Üstəlik, Azərbaycan əqli mülkiyyət hüququyla bağlı demək olar ki, bütün konvensiyalara da qoşulub. Hətta Qərb ekspertləri Azərbaycanda bu sahədəki qanunvericilik və mexanizmləri MDB və bəzi Avropa ölkələrindən də yüksək qiymətləndirirlər. Amma bununla yanaşı, Azərbaycanda əqli mülkiyyət hüquqlarının pozulması addımbaşı baş verir. Azərbaycan Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanovun sözlərinə görə, Azərbaycanda müəlliflik hüquqları əsasən iki cür pozulur - qanunsuz istifadə və plagiat - özününküləşdirmə.

Plagiat və qanunsuz istifadə - piratçılıqla bağlı misallar üçün uzağa getmək lazım deyil. Məsələn, kompüter proqramları istehsal edən “Microsoft”un araşdırmalarına görə, Azərbaycandakı kompüterlərin 95 faizə qədərinə lisenziyasız - pirat “Windows” proqramları quraşdırılıb. Hollivudda çəkilən bir filmin hələ Amerika və Avropada təqdimatı olmaya-olmaya, artıq Bakı mağazalarında 5 dollara açıq satılır.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
Son səhifə
N 223 (6544) 10 oktyabr 2016



## Uşağın nə qədər çoxdursa, o qədər çox yaşayacaqsan

**Aparılan araşdırmalar nəticəsində məlum olub ki, ana olandan sonra qadınların ömrü uzanır. Araşdırma heç də 1-2 uşaqlı anaları əhatə etmir, söhbət dünyaya 6 və ya daha çox uşaq gətirmiş qadınlardan gedir. Yəni 6 uşaq sahibi bir ananın ömrü digər anaların ömründən daha çoxdur.**

Avstraliyada aparılan araşdırmaya görə, 6 və ya da daha çox sayda uşağı olan qadınlar yüzdə 40% daha az ölüm riski daşıyır. Araşdırmanın rəhbəri olan Yeni Cənubi Uels Universiteti professoru Leon Simons bildirib ki, “qadınları 6-dan çox uşaq sahibi olun deyə təşviq etməsək də, görünən budur ki, çoxuşaqlı analar ən azı, bir uşağı olan həmcinslərindən daha çox yaşayır”.

ABŞ mətbuatında yer alan araşdırma isə 1988-ci ildən etibarən, yaşı 60-dan yuxarı olan 1500 qadın və 1200 kişini əhatə edib. Gəlinən nəticəyə görə, uşağı olmayan qadınlara nisbətlə iki uşağı olan qadınlar yüzdə 17, üç uşağı olan qadınlar yüzdə 20 daha az ölüm riski daşıyır. Uşaq sayı artdıqca anaların ölüm riski azalmağa davam edir. Bu vəziyyətin səbəbinin hələ tam olaraq açıqlanmadığını bildirən Simons, eyni tapıntılara başqa ölkələrdə də rast gəlindiyini bildirib.

# Bu hobbilər insanın zehnini möhkəmləndirir

**İnsanların məşğul olduqları bəzi hobbilər onların inkişafı üçün zəruridir. Alman alimlərə görə, bunlardan birincisi hər hansı bir alətdə ifa etməkdir. Hər hansı bir alətdə ifa edə bilməyin ən müsbət cəhəti beyinin yarımkürələrinin əmələ gətirdiyi korpus kallozumunu gücləndirməsidir. Əmələ gələn bu korpus kallozum yaşınız neçə olursa olsun, idarə etmə bacarığına, yaddaş problemlərini tez bir zamanda həll etməyə və ümumi beyin funksiyalarına kömək edir.**



Mütaliə etmək insanı daha anlayışlı edir, stresini azaldır. Daim idmanla məşğul olmaq isə yaddaş, öyrənmə, diqqət kimi keyfiyyətləri möhkəmləndirir. Alimlərin fikrincə, hərəkətsiz qalmaq beynin normal işləməsinin qarşısını alır. Xarici dil öyrənmək, beyni daim inkişaf etdirmək üçün stolüstü oyunlar, puzzle düzəltmək və bu kimi işlər beyin fəaliyyətinizi artırmağa kömək edir. Belə oyunlar oynayan insanlar hər hansı hadisəni bir neçə mövqedən görə bilir, sinir hüceyrələrini fərqli şəkildə inkişaf etdirir.

# Saqqız çeynəmək ağzı təravətləndirmir



**Mütəxəssisləri görə, saqqız ilk növbədə gicgah-çənə oynağını möhkəmləndirir. Belə ki, sərbəst qidalanma heç bir zaman saqqız qədər bu oynağı və onu təşkil edən sümük-əzələ sistemini hərəkətli edə bilməz. İkinci effekt isə onun ağız suyu vəzilərini aktivləşdirməsi ilə üzə çıxır. Bu həzm prosesini sürətləndirməklə qida qalıqlarından ağız boşluğunu təmizləyir və sonradan əmələ gələ biləcək xəstəliklərin qarşısı beləcə alınmış olur.**

Ancaq kariyesi buraya daxil etmək olmaz. Belə ki, əmələ gəlməkdə olan karietik prosesi saqqızlar daha da aktivləşdirir. Dişlərin ağlığı məsələsinin həllində saqqızların rol ala bilməyəcəyi isə birmənalı qəbul olunmuş qərardır. Həkimlərin gəldiyi ümumi qənaət belədir ki, saqqızların ağızı təravətləndirmək qədər xüsusi bir funksiyası yoxdur. Onu qətiyyən səhər yeməyindən öncə və gün ərzində davamlı çeynəmək olmaz.

Mədənin selik ifraz edən vəzilərinin daima aktivləşməsini təmin edən saqqızlar bir çox xəstəliklərin, xüsusilə qastrit və xora üçün tətikləyici vasitəsi ola bilər. Mədə-bağırsaq xəstəliklərindən əziyyət çəkənlər isə ümumiyyətlə, ondan uzaq durmalıdırlar. Normal keyfiyyətlərə malik insanlar isə yalnız qidadan sonra və maksimum 5-10 dəqiqə saqqız çeynəyə bilərlər.




**QOÇ** - Əgər daxilinizdə paxıllıq və eqoistlik varsa, qısa zamanda ondan təmizlənin. Yoxsa xoş məqamlar sizdən uzaqlaşacaq. Əgər bunu bacarsanız, uğurlu bir gün yaşayacaqsınız.

**BUĞA** - Göy qübbəsi ilk növbədə maddi durumunuza müsbət təsir göstərəcək. Saat 12-dən başlayaraq əsas vaxtınızı yalnız bu amilə ayırın. Ağlınız kəsməyən işlərə isə girişməyin. Axşam təmiz havada çox gəzinin.

**ƏKİZLƏR** - Maliyyə problemlərinizin artdığı bu ərəfədə özünüzü üzməməlisiniz. Çünki Göy qübbəsi bunun qısa zamanı əhatə edəcəyini bildirir. Bu gün konkret olaraq ailə üzvlərinizlə ilgilənin.

**XƏRÇƏNG** - Ümumi məziyyətlərinə görə, düşərli gün hesab etmək olar. Bir tərəfdən maraqlı insanlarla görüşləriniz, digər tərəfdənsə şəxsi işlərinizdə baş qaldıran müsbət dönüş sizi sevindirəcək.

**ŞİR** - Saat 11-12 və 19-20 aralığı sizin üçün bir qədər mübahisəli keçə bilər. Həmin zamanlarda maksimum təmkin nümayiş etdirin. Günün qalan hissəsini normal başa vuracaqsınız. Təcrübəniz olmayan işlərə girişməyin.

**QIZ** - Sağlıq durumunuz imkan versə, bu gün paralel olaraq bir neçə işin öhdəsindən gələ biləcəksiniz. Şəxsi həyatınıza hakim kəsilən problemlərə də işıq düşəcək. Özünüzü daha çox sevgiyə həsr edin.

**TƏRƏZİ** - Astroloji göstəricilər bu təqvimə böyük ümidlərlə yanaşdığınızı bəyan edir. Bunun üçün ilk öncə enerjinizi münasibətləri yaxşılaşdırmağa yönəldin. Boş məsrəflərə isə ciddi pul xərcləməyin.

**ƏQRƏB** - Oktyabrın bəxtinizə düşən ən uğurlu günü artıq yetişib. Elə isə boş dayanmağa lüzum yoxdur: bütün cinahlardan hərəkətə keçin. Xüsusən də fəaliyyətlə bağlı uğurlu məqamlarınız artacaq.

**OXATAN** - Ulduzların düzümü xoş məqamların şahidi olacağınızı bəyan edir. Lakin bu kimi şansları qaçırmamaq üçün özünüz də aktivlik göstərməlisiniz. Azyaşlılara xüsusi diqqət yetirin.

**OĞLAQ** - Naharaqədərki müddəti neytral şəkildə başa vurmağa çalışın. Çünki göstərilən ərəfədə müəyyən xoşagəlməzliklər baş verə bilər. Xüsusən də pulla bağlı söhbətlərdə ehtiyatlı olun.

**SUTÖKƏN** - Mənfi enerjili Ay gün boyu sizin bürcdə bərqərar olduğu üçün ilk növbədə səhhətinizlə bağlı problemlər yarana bilər. Odur ki, orqanizminizə uyğun olmayan işlərdən uzaq olun. Əsəblərinizi qoruyun.

**BALIQLAR** - Astronomik mənzərənin gərginliyi fəaliyyət istiqamətində bəzi planlarınızı təxirə salmağı tövsiyə edir. Ümumiyyətlə bu gün risk etməyin. Münasibətlərdə isə qarşı tərəfin emosiyalarına təmkinlə yanaşın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Çox düşünənlərin yaddaşı zəif olur



İngiltərədə aparılan bir araşdırmaya görə, çox düşünən insanların yaddaşı zəif olur. Bu adamlar digərləri ilə müqayisədə daha tez depressiyaya düşürlər. Aparılan təcrübələr zamanı elm adamları insanların hansısa bir mövzuda qərar verərkən nə qədər düşündüyü ilə bağlı beyinin hansı hissəsinin daha çox fəal olduğunu araşdırıblar. Verdikləri qərarlardan əmin olan və üzərində təkrar-təkrar düşünməyən adamların beyinlərinin düşüncə ilə bağlı hissəsi sayılan ön hissədə daha çox hüceyrələr var. Qərarları və həyat haqda dəqiq düşünə bilməyən insanların beyinlərinin ön hissələrində hüceyrələrin sayı isə digərləri ilə müqayisədə xeyli azdır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “E-Q” mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
Lisenziya N: B 114
SAYI: 4.750